№ 4 (947) 26 yanvar - 1 fevral 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# MİLLİ ORDUMUZUN QÜDRƏTİ ARTIR, HƏRBİ SAHƏNİN MADDİ-TEXNİKİ BAZASI MÖHKƏMLƏNDİRİLİR





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 23-də Müdafiə Nazirliyinin Abşeron rayonunun Pirəkəşkül qəsəbəsində "N" hərbi hissəsinin yeni inşa edilmiş hərbi şəhərciyinin açılışında iştirak edib.

Yeni hərbi şəhərcik 42 hektar ərazidə yerləşir. Burada tikinti işləri 2014-cü ilin mayında başlanıb, ötən ilin sonunda isə yekunlaşıb. Şəhərcikdə zabit, gizir və çavuşlar üçün 9 yaşayış binası inşa edilib. Onlardan 4-ü ailəli, 5-i isə subay hərbi qulluqçular üçündür. Ərazidə ümumilikdə 13 əsgər yataqxanası tikilib. Hərbi şəhərcikdə inzibati, xidməti və texniki binalar da inşa edilib. Hərbi şəhərciyin qərargah binası müasir səviyyədə yaradılıb. İkimərtəbəli qərargah binasının foyesində ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdikləri diqqəti əks etdirən fotostend yaradılıb. Burada hərbi hissə növbətçisi, istirahət, qonaq və digər xidməti otaqlar var. Qərargah binasında Şərəf otağı, brifinq və akt zalları da hərbçilərin ixtiyarına verilib. Bir sözlə, burada hərbi qulluqçulara xidmətlərini yüksək səviyyədə aparmaq və istirahət etmək üçün hərtərəfli şərait yaradılıb.

Hərbi şəhərcikdə ailəli hərbi qulluqçuların yerləşməsi üçün iki və üçotaqlı mənzillərdən ibarət yaşayış binaları inşa edilib. Binalardakı mənzillər yumşaq və bərk mebellər, zəruri inventar və televizorla təmin olunub. Bütün binalara su, elektrik, telefon, internet və televiziya kabeli xətləri çəkilib.

Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. 2003-cü ildən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün milli ordumuzun dünyanın ən qüdrətli ordularının sırasına daxil olmasına imkan yaradıb.

Bu cür hərbi şəhərciklərin inşası bir daha sübut edir ki, ordu quruculuğu sahəsində aparılan islahatlar kompleks şəkildə həyata keçirilir. Bütün bunlar isə Azərbaycan Ordusunun qüdrətini artırır, hərbi sahənin maddi-texniki bazasını möhkəmləndirir.

Bu gün ordumuzun balansında dünyanın ən müasir silah-sursatı və hərbi texnikası var. Son illərdə dövlətimizin başçısı, Ali Baş Komandanın diqqəti sayəsində ölkəmizdə yaradılan müdafiə sənayesi kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar açır. Təsadüfi deyil ki, indi ölkəmizin silah-sursatları bir çox parametrlərinə görə dünyada ilk yerlərdən birini tutur.

Hərbi şəhərcikdə yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı hərbi qulluqçularla görüşmüş, nitq söyləmişdir.

O, demişdir:

- Ərazisi 42 hektar olan bu şəhərcik ən yüksək standartlara cavab verir. Şəhərciklə tanış olarkən görürəm ki, xidmət aparmaq, yaşamaq üçün bütün şərait var. Ən müasir standartlar tətbiq olunub, xidmət şəraiti ən yüksək səviyyədədir. Hesab edirəm ki, bu hərbi şəhərcik dünya miqyasında nümunəvi hərbi şəhərcikdir.

Bu şəhərciyin inşa edilməsi bir daha onu göstərir ki, Azərbaycanda ordu quruculuğuna çox böyük diqqət yetirilir. Son bir neçə il ərzində iyirmidən çox hərbi şəhərcik tikilib və əsaslı şəkildə təmir edilib. Bu gün hərbi hissələrimizin mütləq əksəriyyəti, demək olar ki, bu səviyyədədir. Ümid edirəm ki, növbəti bir-iki il ərzində yararsız vəziyyətdə bir dənə də hərbi infrastruktur olmayacaq.

Prezident ordu quruculuğu prosesinin Azərbaycanda dövlət siyasəti olduğunu vurğulamış, demişdir ki, iyirmi il qüsursuz xidmət göstərən hərbçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir, bu proses artıq geniş vüsət alır. Xidmət aparmaq üçün bütün lazımi tədbirlər görülür. Bir sözlə, hərbçilərimizin həm xidmət, həm də məişət şəraiti daim diqqət mərkəzindədir.

Bizim ordumuz güclü ordular sırasındadır. Son illər ərzində ordumuzun maddi-texniki təminatı böyük dərəcədə inkişaf edib. Bu gün təminat-təchizat baxımından yüksək səviyyəyə malik olan Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Biz son illər ərzində bir çox ölkələrdən ən müasir texnika, silah-sursat almışıq ki, bu texnika və silahlar bu gün bizim ordu potensialımızı gücləndirir. Bir neçə ölkədən alınmış onlarla döyüş təyyarəsi, 100-dən çox hərbi və hərbi nəqliyyat vertolyotu, hava hücumuna qarşı müxtəlif müasir sistemlər bizim müdafiə gücümüzü artırır. Müxtəlif ölkələrdən alınmış ən müasir tanklar, zirehli maşınlar, artilleriya qurğuları da düşmənin istənilən hədəfini yüksək dəqiqliklə və böyük dağıdıcı qüvvəsi ilə məhv edə bilər. Ən müasir pilotsuz uçuş aparatları, həm kəşfiyyat, həm döyüş üçün digər texnikalar alınır və bu proses bu gün də davam edir.

Bu gün heç kimə sirr deyil ki, bizim işimiz haqq işidir və biz öz torpağımız uğrunda vuruşuruq.

Bu gün bu hərbi şəhərciyin açılışı bir daha onu göstərir ki, Azərbaycan düzgün yoldadır. Hətta ölkə iqtisadiyyatı üçün ən ağır il olan 2016-cı ildə də biz uğurlu inkişaf dinamikasını saxlamışıq və böyük sərmayələr qoymuşuq. Son illərdə artıq 20-dən çox hərbi şəhərcik tikilib. Lakin digər yerlərdə, müxtəlif bölgələrdə hərbi şəhərciklərin tikilməsi də nəzərdə tutulur.

Prezident İlham Əliyev ordumuzun bütün şəxsi heyətini bu gözəl hadisə münasibətilə təbrik etmiş, ordumuza yeni uğurlar arzulamışdır.

Görüşdə, həmçinin Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov da çıxış etmişdir.




# TANAP layihəsi üzrə işlərin 60 faizi tamamlanıb



Azərbaycan təbii qazının Türkiyəyə və bu ölkədən də Avropaya nəqlini nəzərdə tutan Trans-Anadolu qaz boru kəməri (TANAP) layihəsi üzrə işlərin 60 faizi tamamlanıb.

Bu sözləri "SOCAR Turkey Enerji A.Ş."nin (STEAŞ) baş direktoru Zaur Qəhrəmanov deyib. O qeyd edib ki, TANAP-a investisiya qoyuluşunun 2020-ci ildə bitməsini gözləyirik. İlk qaz 2018-ci ilin iyununda Türkiyəyə çatdırılacaq. 11,7 milyard dollara həyata keçirilməsi planlaşdırılan layihənin kapital xərcləri 8,5 milyard dollara düşüb və 3,2 milyard dollara qənaət edilib.

"Türk axını" layihəsi bizə təsir etməz. Azərbaycanın təbii qaz satışı məsələsində çətinliyi yoxdur. 2046-cı ilə qədər müqavilələrimiz var. Türkiyə təbii qazın qiyməti ilə bağlı tədarükçü ölkələrlə bəzi danışıqlar aparır. Hələ ki, bizimlə belə bir danışıq olmayıb. Amma belə bir istək olarsa, əlbəttə, biz də danışıqlar apararıq. İsrail qazı ilə bağlı da bir narahatlığımız yoxdur. Hazırda danışıqlar aparılır. Türkiyə razılıq verərsə, TANAP-la İsrail qazı da nəql edilə bilər", - deyə Z.Qəhrəmanov bildirib.

# Ötən il Azərbaycanda elektrik enerjisi istehsalı artıb

2016-cı ildə Azərbaycanda elektrik stansiyaları 23,07 milyard kilovatt/saat elektrik enerjisi istehsal edib. Bu, 2015-ci ilin göstəricisindən 0,8 faiz çoxdur.

Bu barədə Dövlət Statistika Komitəsinin hesabatında məlumat verilir.

Hesabat dövründə istehsal olunan elektrik enerjisinin ümumi həcmindən 22,05 milyard kilovatt/saatı əmtəə elektrik enerjisinin payına düşüb. Bu, 2015-ci ildəki göstəricidən 1,1 faiz çoxdur. 2016-cı ildə istehsal olunan əmtəə elektrik enerjisinin ümumi həcmindən 20,06 milyard kilovatt/saatı istilik elektrik stansiyalarının payına düşüb. Bu, 2015-ci ildəki göstəricidən 1 faiz azdır.

Ötən il su elektrik stansiyalarında 1,91 milyard kilovatt/saat elektrik enerjisi istehsal olunub. Bu da bir il əvvəlki göstəricidən 24,1 faiz çoxdur.

2016-cı ildə Azərbaycanda külək enerjisi generasiyası gücləri tərəfindən 17,8 milyon kilovatt/saat, günəş enerjisi generasiyası gücləri tərəfindən 66 milyon kilovatt/saat elektrik enerjisi istehsal olunub.

# Ölkəmizdə ötən il 400-dən çox sənaye müəssisəsi açılıb

Ötən il Azərbaycanda qeyri-neft sənayesində müasir müəssisələrin yaradılmasının dəstəklənməsi davam etdirilib, 410 sənaye müəssisəsi açılıb, bir sıra sənaye obyektlərinin tikintisinə başlanılıb, sənaye parklarının və zonalarının təşkili işləri davam etdirilib.

Bu barədə İqtisadiyyat Nazirliyinin geniş kollegiya iclasında bildirilib. Qeyd olunub ki, Sumqayıt Kimya Sənaye Parkında (SKSP) ümumi investisiyalarının həcmi 1,1 milyard dollar təşkil edən 9 müəssisəyə rezident statusu verilib. Bunlardan polad və polietilen boru, mexaniki və hidrotexniki avadanlıqlar istehsal edən "Azertexnolayn" zavodu 2013-cü ildə fəaliyyətə başlayıb və müəssisədə 750 nəfərdən çox işçi çalışır. Artıq müəssisədə istehsal olunan məhsulun yarıdan çoxu ixrac edilib. Bundan başqa, 2017-ci ildə 4 müəssisə - yüksək təzyiqə davamlı xortum və fitinqlər istehsal edən "MST Engineering Services", tikinti məhsulları və qatqıları istehsal edən, İsveçrənin beynəlxalq miqyaslı kimya şirkəti olan "SİKA" MMC, yüksək keyfiyyətli sintetik və yarısintetik sürtkü yağları istehsal edən "Alco Lubricant Company", pestisid və aqro-kimyəvi məhsullar istehsal edən "Aqrokimya Azərbaycan", 2018-ci ildə isə daha 3 müəssisə - polipropilen və yüksək sıxlıqlı polietilen istehsal edən "SOCAR Polymer", ferroərintilər istehsal edən "Bakı Əlvan Metallar və Ferroərintilər Şirkəti", Float texnologiyası əsasında şüşə lövhələr istehsal edəcək "AzerFloat" fəaliyyətə başlayacaq. Bu müəssisələrdə 800-ə yaxın yeni iş yerlərinin açılması nəzərdə tutulur.

Balaxanı Sənaye Parkında infrastruktur işləri tamamlanmaq üzrədir. Sənaye Parkında fəaliyyət göstərən 5 rezident tərəfindən işlənmiş mühərrik yağlarının emalı, plastik (PET) butulkaların təkrar emalından PET qırıntılarının, tullantı kağızlardan istifadə etməklə çap-poliqrafiya məhsullarının istehsalı, təkrar emal olunmuş plastik materiallardan irihəcmli müxtəlif məhsulların istehsalı, taxta-ağac məmulatların emalı sahələrində 5 müəssisə yaradılacaq. 2017-ci ilin birinci yarısında fəaliyyətə başlayacaq müəssisələrdə 400-ə yaxın yeni iş yeri açılacaq. Balaxanı Sənaye Parkına yeni rezidentlərin cəlb edilməsi məqsədilə maraq göstərən sahibkarlarla danışıqların aparılması və təşviqat işləri davam etdirilir. Kollegiya iclasında bildirilib ki, ötən ilin sentyabrında dövlət başçısı tərəfindən təməli qoyulmuş Mingəçevir Sənaye Parkında yüngül sənaye məhsulları, o cümlədən iplik, boyama, toxuma, tikiş, corab, ayaqqabı və tibbi kosmetika istehsalı üzrə 9 fabrikin yaradılması ilə 150-200 milyon dollar investisiya qoyuluşu və 5500-dən çox yeni iş yerinin açılması nəzərdə tutulur. Parkda yerləşən zavodlar üçün xammal bazası yerli məhsullar hesabına təmin ediləcək, xammaldan son məhsuladək istehsal zənciri qurulacaq.

# Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədi ilə və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 29.2-ci maddəsinə uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, 2016-cı il üzrə istehlak qiymətləri indeksinə uyğun olaraq 2017-ci ilin 1 yanvar tarixinə:

1.1. bütün növ əmək pensiyalarının sığorta hissəsinin artırılmasını təmin etsin;

1.2. fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində toplanmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 yanvar 2017-ci il

# Minimum aylıq əməkhaqqının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında əhalinin maddi rifahını yaxşılaşdırmaq və sosial müdafiəsini gücləndirmək məqsədi ilə qərara alıram:

1. Minimum aylıq əməkhaqqının məbləği 2017-ci il yanvarın 1-dən 116 manat müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 31 avqust tarixli 3112 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 992) 1-ci hissəsi ləğv edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 yanvar 2017-ci il

KİVDF

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# AZƏRBAYCAN EKOTURİZMİN İNKİŞAFI SAHƏSİNDƏ BÖYÜK POTENSİALA MALİKDİR

Çağdaş dünyada turizm ən gəlirli və cəlbedici sahələrdən birinə çevrilib. Qloballaşma ölkələri və xalqları bir-birinə yaxınlaşdırıb, gediş-gəlişi intensivləşdirib. Artıq turizm böyük biznes olmaqla yanaşı, həm də ölkənin tanımıdır, onun beynəlxalq nüfuzudur. Turizm imkanları baxımından heç də hər ölkənin bəxti eyni dərəcədə gətirməyib. Özünün zəngin təbiətinə, flora və faunasına görə Azərbaycan üstün mövqelərə malik olan bir ölkədir.

Azərbaycan təbiəti dünyada mövcud olan 11 iqlim qovşağının 9-nu özündə qoruyub saxlayır. Bu isə ölkəmizdə turizmin bütün növlərinin inkişafına imkan verir. Belə turizm sahələrindən biri də ekoturizmdir. Terminalogiyaya son vaxtlar daxil olmasına baxmayaraq, ekoturizm Azərbaycanda xeyli inkişaf yolu keçib. Sadəcə olaraq o vaxtlar bu ekoturizm yox, səyahət, ekskursiya və s. adlandırılırdı. İndi elə bir dönəmə gəlib çıxmışıq ki, ekoturizm qabaqcıl fəaliyyət sahəsinə çevrilib. Bu istiqamətdə ölkəmizdə indiyədək hansı tədbirlər görülüb, daha hansı zəruri addımların atılmasına ehtiyac vardır!

Bir az tarixə ekskurs edək. Ötən əsrin 30-cu illərində Azərbaycanda ilk qoruqlar – Göygöl, Zaqatala, Qızılqaya, 50-ci illərin sonunda isə Türyançay qoruğu yaradılıb. 1959-cu ildə Azərbaycan Respublikasında təbiətin qorunması haqqında xüsusi qərar verilib və bundan sonra ümumi sahəsi 46,8 min hektar olan daha 7 qoruq yaradılıb. Bunlar aşağıdakılardır: Qobustan, Pirqulu, Şirvan, Qarayazı, Ağgöl, İsmayıllı və İstisu. Ötən əsrin 90-cı illərinin əvvəllərində respublika ərazisində 15 qoruq mövcud olub. 2004-cü ildə isə ümumi sahəsi 194,818 min hektar, yəni ölkə ərazisinin 2,23 faizi qədər olan 13 qoruq, 4 milli park, 17 yasaqlıq mövcud olub.

Azərbaycanın qoruqları nəinki Cənubi Qafqazda, hətta bütün dünyada tanınır. Böyük Qafqazda 6, Kiçik Qafqazda 3, Talış dağlarında 1, Kür-Araz və Lənkəran ovalıqlarında 4 dövlət qoruğu yaradılıb. Ümumiyyətlə, Azərbaycanda 2 qoruq – Qızılağac və Qobustan beynəlxalq, 12 qoruq regional və 1 qoruq (Qaragöl) ölkələrarası qoruq hesab olunur. Qobustan qoruğu beynəlxalq turizm marşrutlarının tərkibinə daxil edilib. Naxçıvan Muxtar Respublikasında Şahbuz Dövlət Təbiət Qoruğu öz unikallığı ilə seçilir. Burada 2899 bitki növləri yayılıb. Azərbaycan ərazisində qeydə alınmış 361 quş növündən qoruqda oxuyan silvi, adi kəklik, sarıköynək, enliquyruq bülbül, meşə xoruzu, hop-hop və s. məskunlaşıb. Qoruğun ərazisində, həmçinin qonur ayı, porsuq və vaşaqa da rast gəlinir.

Böyük Qafqaz sıra dağlarının cənub ətəklərində hələ 1929-cu ildə 25,2 hektar ərazidə yaradılan Zaqatala Dövlət Təbiət Qoruğunun ərazisi dəfələrlə dəyişdirilib. Qoruğun ərazisi hazırda 23844 hektar təşkil edir. Burada 900-dən artıq bitki növü yayılıb. Qoruqda palıd, vələs, fıstıq, qarağac, cökə, göyrüş, şabalıd, qoz, ayıfındığı, quşarmudu ağacları vardır. Hətta meşədə yaşı 100-250 il olan, hündürlüyü isə 30 metrə çatan fıstıq ağaclarına da rast gəlmək olar. Qoruqda yayılmış bitki növlərindən 12-si, məməlilərdən vaşaq və kəpkəz, quşlardan iri qırğı, bərqud, Qafqaz tetrası Azərbaycanın «Qırmızı kitabı»na, yırtıcı quşlardan toğlugötürən, Qafqaz şahini dünya «Qırmızı kitabı»na daxil edilib.

Başqa bir unikal qoruq, yuxarıda da qeyd edildiyi kimi, 1958-ci ildə Ağdaş və Yevlax rayonunun ərazisində yaradılan Türyançay qoruğudur. Pirqulu, Şirvan Dövlət Təbiət Qoruqlarında isə 30 növ məməli, 9 növ sürünən, 6 növ amfibiya, 64 növ quş var. Palıd və fıstıq meşələrində qaban, vaşaq, qurd, çaqqal, tülkü, cüyür və başqa heyvanlar yaşayır.

Azərbaycanın şimal-qərbində, Ağstafa rayonunda, Kür çayının massivlərinin qorunub mühafizə edilməsindən ibarətdir. Dünyada nadir sayılan şərq çinarının qorunub saxlanılması məqsədilə 1974-cü ildə Zəngilan rayonunda, Kiçik Qafqaz dağlarının cənub-şərq ərazisində, Bəsitçay vadisi boyunca yaradılan Bəsitçay Dövlət Təbiət



sol hissəsində 1978-ci ildə yaradılan, Qarayazı, Laçın və Ermənistanın Goruş rayonu sərhədində, dəniz səviyyəsindən 2658 metr hündürlükdə yerləşən Qaragöl təbiət qoruqları flora və faunasının zənginliyi ilə diqqəti cəlb edir.

1981-ci ildə 9,3 hektarda Qax rayonu ərazisində, Böyük Qafqazın cənub yamaclarında İlisu Dövlət Təbiət Qoruğu yaradılıb və burada 500 növ bitki mövcuddur. Qoruqda maral, cüyür, dağ kəli, dovşan, dələ, qarapaça və s. heyvanlar məskunlaşıb. 2004-cü il 16 dekabr tarixində Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Samux rayonu ərazisində Eldar Şamı Dövlət Qoruğu yaradılıb və bu qoruğun yaradılmasında əsas məqsəd genetik fondun, bioloji müxtəlifliyin, ekosistemin, nadir təbiət bitkilərinin və dünyada yeganə vətəni olan Eldar şamı meşə Qoruğunun çinarlıq hissəsi qoruq ərazisinin 93,5 faizini təşkil edir. Çinar ağaclarının orta yaşı 170 ildir, hətta burada yaşı 1200-1500 il, hündürlüyü 50 metr, diametri 4 metrədək olan ağaclara da rast gəlinir. Mənfur düşmənin tapdağı olan bu meşəliklər artıq neçə illərdir ki, vəhşicəsinə qırılıb məhv edilir. Böyük Qafqazın cənub yamaclarında İsmayıllı Dövlət Təbiət Qoruğu 1981-ci ildə təbii ekoloji tarazlığı qorumaq məqsədilə yaradılıb və qoruğun ərazisi 5,78 min hektardır.

Bir məsələni xüsusi olaraq qeyd etmək lazımdır ki, XX əsrin ortalarından etibarən ekosistemə və bioloji müxtəlifliyə təhlükə törədən faktorların sayı artmış, bir çox nadir flora növləri və cinslər məhv edilmişdir. Vəziyyətin belə qorxulu həddə gəlib çatması bütün dövlətləri ciddi narahat etməyə başlamışdır.

Ölkəmizdə bu istiqamətdə bir sıra kompleks tədbirlər görülür ki, bunların içərisində milli parkların yaradılması xüsusi önəm kəsb edir. 2003-cü ildən başlayaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən akademik Həsən Əliyev adına Ordubad, həmçinin Şirvan, Ağgöl, Hirkan, Altıağac, Şahdağ, Abşeron, Göygöl kimi milli parklar yaradılıb. 2008-ci ildə Hirkan Milli Parkının ərazisi genişləndirilərək 40350 hektara çatdırılıb. 2008-ci ildə ölkə başçısının sərəncamı ilə Ordubad Milli Parkının ərazisi hesabına Şahbuz Milli Parkının ərazisi genişləndirilərək 42797,4 hektara çatdırılıb. Nazirlər Kabinetinin 2010-cu il 8 iyul tarixli sərəncamı ilə Şahbuz Milli Parkının ərazisi daha da genişləndirilərək 130508,1 hektara çatdırılıb.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 noyabr tarixli sərəncamı ilə 11772, 5 hektar ərazidə Samur-Yalama Milli Parkı yaradılıb. Son illər həyata keçirilən ardıcıl və sistemli tədbirlər nəticəsində bu gün respublika ərazisinin 3,7 faizini milli parklar təşkil edir.

Yuxarıda qeyd edilən Hirkan Milli Parkı Lənkəran və Astara inzibati rayonlarının ərazisində yerləşir və 21435 hektar təşkil edir. Bu park Talış dağlarının unikal təbiət komplekslərini əhatə etməklə nadir sayılan, adı «Qırmızı kitaba» düşən tipik flora və fauna növlərinin qorunub saxlanılmasını təmin edir. Həm də burada turizm və istirahət üçün əlverişli şərait vardır.

Kür-Araz ovalığının Şirvan düzənliyinin 65580 hektar xüsusi mühafizə edilən ərazisinin 54374 hektarında Şirvan Dövlət Milli Parkı, 6232 hektarında Şirvan Dövlət Qoruğu və 4930 hektarında isə Bəndovan Dövlət Təbiət Yasaqlığı yerləşir. Dünyada o cümlədən Azərbaycanda təhlükədə olan quşların milli parkın ərazisində 34 növünə rast gəlinir. Onlardan 14-ü yalnız Azərbaycanın «Qırmızı kitab»ına daxil edilib.

Azərbaycanın dilbər guşələrindən biri də Göygöl Milli Parkı və Göygöl Dövlət Təbiət Qoruğudur. Bu qoruq 1925-ci ildə yaradılıb və Azərbaycanın ilk milli qoruğu sayılır.

Abşeron Dövlət Təbiət Yasaqlığının bazasında yaradılan Abşeron Milli Parkı yarımadanın cənub-şərq qurşağında – Şah Dili ərazisində yerləşir. Parkda 50-dən artıq quş və heyvan, 25-ə qədər bitki növü mövcuddur. Parkın Xəzər dənizi ərazisində dünyada nadir hesab edilən Xəzər suitisinə rast gəlinir. Bu, dünya okeanının ən kiçik suitisi kimi, «Ginnesin» rekordlar kitabına daxil edilib.

Ölkəmizin şimal-şərqində, Xızı və Siyəzən rayonları ərazisində Altıağac Milli Parkı, 1990-cı ildə Altıağac Dövlət Təbiət Qoruğu dövlət meşə fondu torpaqlarının bazasında yaradılıb və ərazisi 11035 hektar təşkil edir.

Ərazisi 115895 hektar təşkil edən Şahdağ Milli Parkı da ölkəmizin ən gözəl turizm məkanlarından biri hesab olunur. Sözsüz ki, bu parkın yaradılmasında məqsəd nəsli kəsilməkdə olan növlər və yüksək dağlıq ərazilərdə yerləşən otlaqlar ekosisteminin bərpası və idarə edilməsi, ərazi üçün xarakterik olan flora və fauna növlərinin qorunması və zənginləşdirilməsindən ibarətdir. Bununla bərabər, bütün rəngarəng çalarları ilə park özünə minlərlə turist cəlb edə bilər.

Ağcabədi və Beyləqan rayonları ərazisindəki Ağgöl Milli Parkı əvvəllər yaşıllıq, sonra isə qoruq olub. 2003-cü ildən isə Milli Park kimi fəaliyyət göstərir. Bu gölün ətrafında müxtəlif növ quşlar və heyvanlar məskunlaşıb.

Haqqında söhbət açdığımız bütün qoruqlar, milli parklar, yasaqlıqlar, meşə massivləri Azərbaycanın ecazkar gözəlliklərini, zəngin təbiətini tam şəkildə əks etdirə bilməz. Azərbaycanın hər bir guşəsi, necə deyərlər, cənnəti-məkandır. Hələ işğal altında olan torpaqlarımızı demirik. Tezi-geci biz o torpaqları mütləq qaytaracağıq, vəhşicəsinə dağıdılmış, talan edilmiş ərazilərimizi bərpa edəcəyik.

Bu gün isə əsas vəzifə mövcud potensialdan səmərəli istifadə etməklə eko¬turizmi, kənd turizmini, dağ turizmini yüksək inkişaf və yüksəliş yoluna çıxarmaqdır.

**Zülfü İLYASOV,**
**«İqtisadiyyat» qəzetinin bölgə müxbiri**

# KORRUPSİYAYA QARŞI MÜBARİZƏDƏ AUDİTİN İMKANLARI GENİŞDİR



**Vahid NOVRUZOV,**
**Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, i.e.d., professor**

*Bu gün korrupsiyaya qarşı mübarizə prioritet məsələdir. Bu mübarizədə yaxşı nəticələr, uğurlar vardır. Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin işi yüksək qiymətləndirilməlidir. Əminəm ki, gələcək illərdə bu sahədə daha da böyük uğurlar əldə ediləcəkdir. Bu bəla Azərbaycandan tamamilə silinməlidir, olmamalıdır. O da həqiqətdir ki, hər bir ölkədə, hər bir cəmiyyətdə korrupsiya vardır. Ancaq əsas məsələ onun dərəcəsidir və onun əhatə dairəsidir. Biz korrupsiya üçün meydanı daim daraltmalıyıq. Burada müxtəlif üsullardan istifadə edirik və edəcəyik.*

Son illərin hadisələri sübut etdi ki, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasına qarşı mübarizə aparmadan və belə halları ləğv etmədən iqtisadi islahatların həyata keçirilməsi və inkişafın sürətləndirilməsi mümkün olmur. İstər qanunsuz yollarla əldə edilmiş pulların leqallaşdırılması, istərsə də onun törədicisi olan korrupsiya hər bir ölkənin iqtisadiyyatına böyük ziyan vurmaqla bərabər, əlverişli investisiya mühitinin formalaşmasına, xarici və daxili mənbələr hesabına investisiyaların cəlb edilməsinə, sahibkarlığın inkişafına ciddi əngəl törədir. Dünya təcrübəsi göstərir ki, çirkli pulların yuyulması (istər ölkə daxilində, istərsə də xaricdə) və korrupsiyanın geniş yayılması ölkənin maliyyə bazarının dayanıqlığını sarsıdır. Eyni zamanda, sübut olunmuşdur ki, qanunsuz yollarla əldə edilmiş pulların və əmlakın leqallaşdırılmasının mümkünlüyü maliyyə hesabatlılığının dürüstlüyündən birbaşa asılıdır.

Başqa sözlə, cinayət yolu ilə əldə edilmiş pulların leqallaşdırılmasına qarşı mübarizədə maliyyə hesabatlarının düzgün tərtib edilməsi və onun obyektiv qiymətləndirilməsi, qanunsuz və şübhəli əməliyyatlara nəzarətin təmin edilməsi, maliyyə institutlarının fəaliyyətində zəruri şəffaflığın olması mühüm əhəmiyyət kəsb edir ki, bu işdə də auditin potensial rolu və əhəmiyyəti çox böyükdür. Beynəlxalq təcrübədə məhz müstəqil auditor tərəfindən təsdiqlənmiş maliyyə hesabatlığının mövcudluğu qanunsuz yollarla əldə edilmiş pul vəsaitlərinin və əmlakın leqallaşdırılmasında və korrupsiyaya qarşı mübarizədə preventiv (qabaqlayıcı) xarakterli tədbir kimi dəyərləndirilir.

Düzgün aparılmış auditin iqtisadi stabilliyin fundamenti kimi qiymətləndirildiyi bir halda, təəssüf ki, son 30 ildə dünyada baş vermiş hadisələr auditə ictimai etimadın azaldılmasına səbəb olmuşdur. Dünyada baş verən proseslər belə bir faktı etiraf etməyə məcbur edir ki, audit maraqlı tərəfləri fırıldaqçılıqdan və dələduzluqdan qoruya bilməməklə yanaşı, həm də bu və digər şirkətin gələcək uğurlarına lazımi dərəcədə təminat yaratmır. Belə ki, baş verən iflas və ya bank-maliyyə qalmaqallarının buna səbəb olan qurumların təmiz (müsbət) auditor rəyləri aldıqları bir şəraitdə baş verdiyi üzə çıxır. Baş verən iqtisadi maliyyə böhranları onu da göstərdi ki, bir sıra hallarda korrupsiyanın yaranmasına və cinayət yolu ilə əldə edilmiş pulların və əmlakın leqallaşdırılmasına auditor xidməti göstərən şirkətlər və şəxslər də cəlb olunur. Təəssüf ki, bizim bəzi üzvlərimiz tərəfindən müsbət rəy almış qurumlarda digər yoxlayıcılar tərəfindən ciddi maliyyə-mühasibat pozuntuları aşkarlanması hallarına da rast gəlinməkdədir. Bu isə, təbii ki, yolverilməzdir və istər beynəlxalq audit standartlarının, istərsə də Peşə Etikası Məcəlləsinin tələblərinə tamamilə ziddir və auditor adı ilə bir araya sığmır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən cəsarətli iqtisadi islahatlar konsepsiyası reallaşdırılarkən müasir dünyada baş verən siyasi və iqtisadi-maliyyə çaxnaşmalarının hökm sürdüyü indiki şəraitdə idarəetmənin mühüm vəsiləsi olan nəzarətin və korrupsiyaya qarşı mübarizənin rolu dəfələrlə artır. Heç də təsadüfi deyil ki, ölkə başçısının imzaladığı fərman və sərəncamlarda maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsinə, təkmil nəzarət mexanizminin tətbiqinə və bütövlükdə, maliyyə intizamının möhkəmləndirilməsinə böyük önəm verilir.

Azərbaycanda iqtisadi inkişaf modelini səciyyələndirən xüsusiyyətlərdən biri də məhz idarəetmə sistemində və bütövlükdə, iqtisadi-sosial həyatda şəffaflıq amilinə xüsusi önəm verilməsidir. Şəffaflığın artırılması və səmərəli nəzarət sisteminin yaradılması hər bir ölkədə sosial-iqtisadi inkişafın təminatının vacib şərtlərindən biri kimi mühüm əhəmiyyət kəsb edir. Şəffaflığın aşağı səviyyədə olması bir tərəfdən korrupsiyanın yayılmasına, qanunsuz gəlirlərin və əmlakın əldə edilməsinə zəmin yaradır, digər tərəfdən iqtisadi sərbəstliyin məhdudlaşmasına və əksinə - idarəetmə heyətinin və məmurların lüzumsuz, tələb olunandan da artıq funksiyalarının möhkəmlənməsinə səbəb olur.

Korrupsiya cəmiyyət üçün ciddi iqtisadi, siyasi və sosial təhlükə mənbəyi kimi çox qorxulu neqativ haldır. Onun dağıdıcı təsiri hər şeydən əvvəl hakimiyyətin bütün səviyyələrinin nüfuzunun aşağı düşməsinə və cəmiyyətin mənəvi əsaslarının korroziyasına gətirib çıxarır, gizli iqtisadiyyatın, ondan törəyən mənfi halların, o cümlədən çirkli pul kütləsinin yaranmasına və geniş yayılmasına zəmin yaradır. Təsadüfi deyil ki, **bu gün də Prezident**



**İlham Əliyev korrupsiyaya qarşı mübarizəni və qanunsuz gəlirlərin qarşısının alınmasını ən prioritet məsələ kimi dəyərləndirməkdə israrlıdır. Dövlət başçısı Azərbaycanın korrupsiyadan azad olmasını və dünyanı bürümüş bu sosial bəla ilə mübarizədə ölkəmizin öncüllər sırasına çıxmasını mühüm bir vəzifə kimi qarşıya qoyub. Bu sahədə möhkəm qətiyyət nümayiş etdirən Prezident İlham Əliyev dövlət quruculuğunda korrupsiya ilə mübarizənin və şəffaflığın, yüksəltmənin daha qətiyyətlə aparılması zərurətini dəfələrlə vurğulamışdır.** Xüsusi olaraq vurğulanmalıdır ki, ölkəmizdə korrupsiyaya qarşı mübarizənin əsas leytmotivi möhkəm siyasi iradənin mövcudluğudur. Dünya ölkələrində korrupsiyaya qarşı mübarizə istiqamətində aparılan işlər onu göstərir ki, bu mübarizə dövlət siyasəti olaraq davamlı hal alırsa, hökmən müsbət nəticələr əldə edilir. Bu baxımdan, Azərbaycan dövləti tərəfindən də belə bir siyasətin davamlı olması mühüm əhəmiyyət daşıyır. Ən önəmlisi isə bu mübarizədə ölkə rəhbərinin siyasi iradə nümayiş etdirməsidir. Siyasi iradə olan yerdə korrupsiyaya qarşı mübarizənin strategiyasını, taktiki gedişlərini müəyyənləşdirmək asandır. **Prezidentin dediyi kimi: "Korrupsiyaya qarşı uğurlu mübarizə üçün güclü siyasi iradə olmalıdır və o da vardır".**

Belə bir siyasi iradənin mövcudluğu Azərbaycan Prezidentinin 2016-cı il 18 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"nda təsbit olunmuş və öz sistemliyi ilə fərqlənən tədbirlər kompleksinin mahiyyətində özünü bir daha büruzə verir. Milli Fəaliyyət Planında qeyd edildiyi kimi, ölkəmiz cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə (PL/TM) qarşı mübarizə sahəsində mühüm institusional və təşkilati idarəetmə xarakterli nəticələrə nail olmuşdur. İlk növbədə qeyd olunmalıdır ki, beynəlxalq tələblərə cavab verən "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ölkəmizdə PL/TM-ə qarşı mübarizənin təkmil qanunvericilik bazasını yaratmaqla qazanılan mühüm uğurların əsasını təşkil edir. Məhz bu uğurların nəticəsidir ki, bir sıra beynəlxalq qurumlar, o cümlədən **Avropa Şurasının Pulların Yuyulmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi ölkəmizdə PL/TM-ə qarşı mübarizə sahəsində həyata keçirilən islahatları, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi, institusional potensialın gücləndirilməsi, hesabatlılıq sisteminin yaradılması, bu istiqamətdə qabaqcıl texnologiyanın tətbiqi sahəsində əldə edilmiş nailiyyətləri yüksək qiymətləndirir.**

Qiymətləndirmə nəticəsində müəyyən edilmiş riskləri aradan qaldırmaq məqsədilə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı" bu sahədə yeni və vacib bir mərhələnin uğurla reallaşdırılması məqsədi güdməklə ölkədə PL/TM-ə qarşı mübarizə sahəsində risk əsaslı mübarizə sisteminin əsas istiqamətlərini özündə ehtiva edir.

Monitorinq subyektləri üçün təlim strategiyasının və ona uyğun təlim proqramlarının hazırlanması və icrası məqsədilə tədbirlərin görülməsi onların potensialının gücləndirilməsi ilə bərabər peşəkarlıq, obyektivlik və müstəqillik kimi prinsiplərin reallaşdırılmasına zəmin yaratmış olacaq. Monitorinq subyektlərinin daxili nəzarət sisteminin gücləndirilməsi üzrə tədbirlərin görülməsinə, qanunvericiliyin tələblərinə uyğun olaraq PL/TM-ə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və effektiv tətbiqinə metodiki dəstəyin təmin edilməsinə Milli Fəaliyyət Planında xüsusi yer ayrılmışdır. Bu onunla izah olunur ki, Azərbaycan Respublikasında daxili nəzarətin və auditin inkişafı istiqamətində son illər müəyyən nailiyyətlər əldə olunmasına baxmayaraq, bir sıra problemlər də mövcuddur. Məhz bu problemlərin həll edilməməsi daxili nəzarətin səmərəli fəaliyyətinə imkan vermir. Bu da öz növbəsində şəffaflığın təminatı və idarəetmənin səviyyəsinin yüksəldilməsi sahəsində ciddi uğurlar əldə edilməsində çətinliklər yaradır.

Mövcud problemlər sırasına ilk növbədə ölkədə daxili nəzarətin və daxili auditin təşkili üzrə müvafiq konsepsiyanın və metodik təminatın olmamasını aid etmək olar. Bir sıra hallarda daxili nəzarət yoxlamaları heç bir plana əsaslanmayan pərakəndə qaydada aparılır. Belə yoxlamaların səmərəsi ola bilməz. Milli Fəaliyyət Planında ehtiva olunmuş PL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin effektivliyinin müəyyən edilməsi üçün daxili audit yoxlamalarının nəticələrinin qiymətləndirilməsi tapşırığının icrası bu istiqamətdə vəziyyətin kökündən dəyişməsi üçün bir əsas olacaq.

Müasir şəraitdə müəssisə və təşkilatların inkişafının, o cümlədən nəzarətin əsas şərtlərindən biri risklərin səmərəli şəkildə idarə edilməsidir. Beynəlxalq standartlarda göstərildiyi kimi, risklərin qiymətləndirilməsi yarana biləcək neqativ şərait və hadisələr haqqında peşəkar dəyərləndirmə aparmaq üçün sistemli prosedurdur. Yoxlanılacaq bütün fəaliyyət və mövcud risk amillərini müəyyən etmək, onların vacibliyini qiymətləndirmək sahəsində müasir informasiya sistemlərinin imkanlarından istifadə edilməsi çox mühümdür. Bu baxımdan şübhəli və yüksək riskli əməliyyatların müəyyən edilməsi üçün monitorinq iştirakçılarının informasiya texnologiyaları sistemlərinin təkmilləşdirilməsi və PL/TM risklərinin müəyyən olunması, əməliyyatların və riskli müştərilərin monitorinqinə imkan verən informasiya sisteminin tətbiqi üzrə metodiki dəstəyin təmini kimi mühüm müddəalar Milli Fəaliyyət Planında öz əksini tapmışdır.

**Milli Fəaliyyət Planında nəzarət orqanlarının potensialının gücləndirilməsi və PL/TM üzrə risklərin davamlı qiymətləndirilməsi kimi mühüm bölmələrdə də bir sıra problemlərin həlli qarşıya məqsəd qoyulmuşdur. Bu baxımdan bizim üçün çox önəmlidir ki, Milli Fəaliyyət Planında Auditorlar Palatasının da 14 tapşırığın icrasında iştirakı nəzərdə tutulmuşdur.** Biz bunu Azərbaycan auditinə olan etimad kimi yüksək dəyərləndiririk. Auditorların fəaliyyətinə ən yüksək qiymət Prezident tərəfindən bu ilin aprel ayında Auditorlar Palatasının 20 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Auditorlar Palatasının kollektivinə və üzvlərinə ünvanladığı təbrik məktubunda verilmişdir. Azərbaycan Prezidentinin təbrik məktubunda şəffaflığın təmin olunmasında Auditorlar Palatasının əvəzsiz rolu vurğulanmışdır. Həmin məktubda Prezident auditin gələcək inkişaf istiqamətlərini göstərərək demişdir: "Eyni zamanda, yeni dövrün çağırışlarını nəzərə alaraq, iqtisadi islahatların indiki mərhələsində audit sistemini yenidən qurmaq, onun təsirliliyini artırmaq və beynəlxalq aləmə inteqrasiyasını gücləndirmək sahəsində çox iş görülməlidir".

Ümumiyyətlə, Azərbaycanda auditə dövlət qayğısının əsasında Prezidentin auditə verdiyi önəm durur. Bu mənada dövlət başçısı İlham Əliyevin aşağıdakı bir neçə il əvvəlki sözlərini xatırlatmaq istərdim: "Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və onun dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından daha geniş istifadə etmək zərurəti yaranır. Bunun üçün müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək çox vacibdir".

"Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf Konsepsiyası (2012-2020-ci illər)"nda nəzərdə tutulan tədbirlər sırasında "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun auditor təşkilatları və sərbəst auditorlar qarşısında yaratmış olduğu öhdəliklərin düzgün icrasının təmin edilməsi tələbini əsas götürərək Auditorlar Palatasında bu ilin iyun ayında "Korrupsiya ilə mübarizədə və şəffaflığın artırılmasında auditorların qarşısında duran vəzifələr" mövzusunda Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasının, Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının, Ədliyyə, İqtisadiyyat, Vergilər, Maliyyə nazirliklərinin, Hesablama Palatasının və müvafiq ictimai təşkilatların iştirakı ilə "dəyirmi masa" keçirilmişdir. "Dəyirmi masa"da müvafiq qurumların rəyi alınmaqla hazırlanmış "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik tövsiyələr" təqdim olunmuşdur.

Auditorlar əmlakın düzgün idarə olunması, ədalət, məsuliyyət və qanun qarşısında bərabərlik prinsiplərinin, vicdanlığın təmin olunması, qanunsuz gəlirləri istisna edən mədəniyyətin formalaşmasına imkan yaradılması zərurətini dərk edərək, təsərrüfat subyektlərində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, o cümlədən belə əməllərin qarşısının alınması və aşkara çıxarılmasına kömək məqsədi daşıyan qənaətbəxş daxili audit mexanizmləri yaradılmasının, eləcə də bu təşkilatların hesablarında və tələb olunan maliyyə məlumatlarında müvafiq audit standart və prosedurlarının, habelə sahibkarlar və bütün müvafiq peşə nümayəndələri tərəfindən maliyyə-təsərrüfat fəaliyyətinin düzgün, vicdanlı və lazımi formada həyata keçirilməsinin zəruriliyini təşviq etməlidirlər. **"Azərbaycanda görülən işlər dünyanın ən inkişaf etmiş ölkələri səviyyəsində olmalıdır. Biz o səviyyəyə qalxmalıyıq. Biz ona yaxınlaşmışıq, bir çox hallarda lap yaxınlaşmışıq. Amma hələ böyük işlər görülməlidir. Ölkəmizdə bütün işlər - iqtisadiyyat, sosial siyasət və bütün başqa məsələlər müasir səviyyədə olmalıdır. İnsanlar rahat yaşamalıdır, sosial ədalət prinsipləri tam şəkildə bərqərar olmalıdır. Nöqsanlarla çox ciddi mübarizə aparılmalıdır və aparılır. Bu sahədəki fəaliyyətimizi daha da gücləndirməliyik... Azərbaycanda rüşvətxorluğa, korrupsiyaya qarşı daha da ciddi mübarizə aparılmalıdır. Bu barədə kifayət qədər qanunvericilik bazası mövcuddur, göstərişlər verilmişdir, sərəncamlar imzalanmışdır. Elə etməliyik ki, Azərbaycanda bu xoşagəlməz halları aradan götürək. Bunu etmək üçün isə gərək biz hamımız - həm iqtidar, həm vətəndaşlar bir hədəfə vurmalıyıq".** Ölkə rəhbərinin bu sözləri bir daha sübut edir ki, korrupsiyaya qarşı mübarizə, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və əmlakın leqallaşdırılmasına qarşı mübarizə bundan sonra da dövlət siyasətinin prioritet istiqaməti olaraq qalacaqdır.

# Vergilər Nazirliyi kiçik və orta sahibkarlarla görüşlər keçirir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 23 dekabr 2016-cı il tarixdə imzalanmış və 2017-ci ilin yanvar ayının 1-dən qüvvəyə minən "Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" və "Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" qanunların, habelə vergi inzibatçılığında baş vermiş dəyişikliklərin mahiyyətinin sahibkarlara və iş adamlarına bilavasitə çatdırılması məqsədilə Vergilər Nazirliyi ölkənin regionlarında və paytaxtda fəaliyyət göstərən vergi ödəyiciləri ilə silsilə görüşləri davam etdirir. İndiyədək 3, 4, 10 və 13 saylı Ərazi Vergilər İdarələrinin əhatə dairəsinə daxil olan 13 rayonda çalışan yerli sahibkarlarla, eləcə də Bakı şəhərində Kiçik Sahibkarlıqla İş və Lokal Gəlirlər Departamentlərinin qeydiyyatında olan sahibkarlarla görüşlər keçirilib.





Yanvarın 17-dən başlayaraq Vergilər Nazirliyi yanında Bakı şəhəri Kiçik Sahibkarlıqla İş Departamenti, yanvarın 18-dən isə Vergilər Nazirliyi yanında Bakı şəhəri Lokal Gəlirlər Departamentinin inzibati binalarında paytaxt ərazisində qeydiyyatda olan, iqtisadiyyatın müxtəlif sektorlarında çalışan kiçik və orta sahibkarlarla görüşlərin keçirilməsinə start verilib.

Görüşlərdə Kiçik Sahibkarlıqla İş Departamentində qeydiyyatda olan ictimai iaşə, pərakəndə ticarət, mebel mağazaları, mobil rabitə obyektləri, aksizli mallar və tikinti materiallarının satışı ilə məşğul olan və s. qəbildən olan vergi ödəyiciləri, həmçinin Lokal Gəlirlər Departamentinin qeydiyyatında olan mənzil-tikinti kooperativləri, istehsalçı şirkətlər, topdan satışla, eləcə də alkoqollu məhsulların istehsalı və satışı ilə məşğul olan vergi ödəyiciləri iştirak ediblər.

Görüşlərdə sahibkarlara Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin mahiyyəti, qanunvericilikdə əksini tapan yeni anlayışlar, yeni vergi bəyannamə və hesabat formaları barədə məlumat və izahatlar verilib, vergi ödəyicilərinin sabit verginin tətbiqi, elektron ticarətin və xidmətlərin vergiyə cəlb olunması, bank hesablarındakı pulun nağdlaşdırılması zamanı verginin tutulması, idman mərc oyunlarının vergiyə cəlb olunması və s. ilə bağlı sualları cavablandırılıb.

Növbəti günlərdə iri bazarlar və şəbəkə supermarketlər, şadlıq sarayları, mebel mağazaları, özəl tibbi xidmət, lizinq və sığorta şirkətləri və s. kateqoriyadan olan ödəyicilər üçün də görüşlərin keçirilməsi nəzərdə tutulur.

Növbəti görüş yanvarın 21-də vergi ödəyicilərinin mühüm iqtisadi dislokasiya zonalarından hesab olunan Sumqayıt şəhərində, 2 saylı Ərazi Vergilər Departamentinin əhatə dairəsinə daxil olan Sumqayıt və Xırdalan şəhərləri, həmçinin Siyəzən və Xızı rayonların sahibkarları ilə keçirilib.

Görüşdə çıxış edən vergilər nazirinin müavini Sahib Ələkbərov Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin əsas məqsədinin ölkədə sahibkarlığın və investisiyaların təşviqi, sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi yükünün azaldılması, sahibkarların hüquqlarının daha etibarlı qorunması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həcminin artırılması, vergi mühtinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, dürüst və şəffaf vergi uçotunun qurulması olduğunu bildirib.

Nazir müavini qeyd edib ki, ölkə başçısının təşəbbüsü ilə qəbul olunmuş "Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Qanunun sahibkarların maliyyə vəziyyətinin sağlamlaşdırılmasına, onların sərəncamında əlavə vəsaitlərin qalmasına, sahibkarlığın inkişafının stimullaşdırılmasına və daha əlverişli biznes mühitinin formalaşdırılmasına xidmət edir. S.Ələkbərov sahibkarları bu qanunun yaratdığı imkanlardan maksimum yararlanmağa çağırıb və bildirib ki, yaranmış borclar üzrə hesablanmış faizlər və Vergi Məcəlləsinin 58.7-ci maddəsinə əsasən hesablanmış maliyyə sanksiyaları artıq tam həcmdə silinmiş, digər maliyyə sanksiyaları üzrə isə müəyyən edilmiş şərtlər daxilində silinəcəkdir.

Görüşdə çıxış edən Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər və onların tətbiqi ilə bağlı məsələlər barədə vergi ödəyicilərini məlumatlandırıb, e-qaimə fakturaların tətbiqi, "Nağdsız hesablaşmalar haqqında" Qanunun tələblərindən irəli gələn məsələləri şərh edib.

Vergi risklərinin təhlili və nəzarəti departamentinin baş direktoru Natiq Şirinov ayrı-ayrı sahələrdə vergi ödəyicilərinin rastlaşdığı konkret suallara aydınlıq gətirib.

Vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov vergi ödəyiciləri ilə partnyorluq münasibətlərinin dərinləşdirilməsi, intizamlı vergi ödəyiciləri üçün "Yaşıl dəhliz" prinsipinə əsaslanan şəffaf vergi xidmətlərinin göstərilməsi, bu prinsip əsasında göstərilən fərdi xidmətlər, uçot sisteminin şəffaflaşdırılması ilə bağlı məsələlər barədə məlumat verib.

# Vergilər Nazirliyi bəyannamə formalarına dəyişiklik edib

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanunun qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında ölkə prezidentinin fərmanından irəli gələn tapşırıqların, habelə Vergilər Nazirliyinin Kollegiyasının qərarı ilə təsdiq edilmiş "Vergi sahəsində aparılan islahatların tətbiqi ilə bağlı Tədbirlər Planı"nın icrası ilə bağlı Nazirliyin Kollegiyasının qərarı ilə bir sıra sənədlərin formaları və tərtib edilməsi qaydaları, o cümlədən "Vergi Məcəlləsinin 149.1.3-cü maddəsində göstərilən qeyri-rezident şəxsin təyin etdiyi vergi agenti barədə arayış" forması, "Maliyyə institutları tərəfindən məlumat verilməli hesablar barədə hesabat" forması və tərtib edilməsi qaydaları, "Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi"nin forması, "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" forması, "Daşınmaz əmlakın icarəsi ilə bağlı aparılmış notariat əməliyyatları barədə məlumat" forması, "Səhmlərinin və paylarının nəzarət zərfi dövlətə məxsus olan dövlət (büdcə) təşkilatları onlara dövlət büdcəsinin investisiya xərcləri hesabına ayrılmış vəsaitlər hesabına alınan və ya quraşdırılan aktivlər barədə məlumat" forması təsdiq edilib.

Bundan başqa, vergilər nazirinin əmrilə Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdən irəli gələn məsələlərin həlli, vergi nəzarətinin səmərəliliyinin artırılması, təhlil bazasının genişləndirilməsi məqsədilə mövcud bəyannamələrə, hesabatlara, onların əlavələrinə və tərtib olunması qaydalarına dəyişiklik edilib, bir sıra bəyannamələrə yeni əlavələr təsdiq olunub. Əlavə dəyər vergisi, mənfəət, gəlir, torpaq, mədən, yol, sadələşdirilmiş vergilərin, onların əlavələrinin, habelə ödəmə mənbəyində tutulan vergi və aksiz bəyannaməsinin formaları və tərtib edilmə qaydaları yeni redaksiyada təsdiq edilib. "Qeydiyyata alınmayan qeyri-rezidentə ödənilmiş məbləğə hesablanmış ƏDV-nin bəyannaməsi", "Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi", ""Xarici subpodratçılardan ödəmə mənbəyində tutulan verginin bəyannaməsi", "Dövlət rüsumunun tutulması haqqında hesabat", "Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərin sadələşdirilmiş verginin bəyannaməsi", "Xüsusi notariusun gəlir vergisi bəyannaməsi", "Daşınmaz əmlak təqdim edə şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan verginin bəyannaməsi", "Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan verginin bəyannaməsi", "Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi" və bir sıra başqa bəyannamələrin formaları və onların tərtib edilməsi qaydaları da qəbul olunub.

# 2016-cı il ərzində vergi orqanlarına daxil olmuş vətəndaş müraciətləri haqqında

2016-cı il ərzində vergi orqanlarına 87 438 müraciət daxil olub ki bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,8% azdır. Müraciətlərdən 95,7%-i ərizə, 4,1%-i şikayət, 0,2%-i təklifdir.

Müraciətlərin 45,3%-i müxtəlif arayışların alınması, 23,7%-i kameral vergi yoxlamaları, 7,2%-i vergi borcları, 3,6%-i vergidən yayınma, dividendlərin verilməsi, nağd hesablaşmaların aparılması qaydalarının pozulması və qanunsuz sahibkarlıq fəaliyyəti, 1,9%-i səyyar vergi yoxlamaları, 0,5%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), qalanları isə digər məsələlərlə bağlı olub.

Bütün müraciətlərə vaxtında baxılıb, onların 71,9%-i müsbət həll olunub.

Hesabat dövründə vergi orqanlarında ümumilikdə 4630 vətəndaş qəbul edilərək, onlara qanunvericilik çərçivəsində lazımi köməklik göstərilib və ya müvafiq izahatlar verilib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşların qəbulu qrafikinə əsasən 2016-cı ildə vergilər naziri tərəfindən Oğuz, Neftçala, Yardımlı, Qusar, Füzuli, Göygöl, Siyəzən, Ucar şəhərində vətəndaşların səyyar qəbulları keçirilib, həmin qəbullarda 33 rayonda yaşayan 255 vətəndaş iştirak edib.



# 2016-cı il ərzində vergi ödəyicilərinə göstərilmiş xidmətlər haqqında

2016-cı il ərzində Vergilər Nazirliyinin Çağrı Mərkəzinin əməkdaşları tərəfindən canlı əlaqə zamanı daxil olmuş 220 399 zəng üzrə 238 889 sual cavablandırılıb.

Vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə onlara 1737459 SMS, İkitərəfli mesaj xidmətinin istifadəçilərinə isə 298 043 SMS göndərilib.

İl ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 4493844 daxilolma qeydə alınıb.

Vergi ödəyicilərinə xidmət strukturlarında 507804 vətəndaş qəbulu qeydə alınıb, qəbul edilmiş şəxslərə 816698 xidmət göstərilib. 2017-ci ilin 1 yanvar tarixinə vergi ödəyicilərinə ümumilikdə 64939 sayda ASAN İmza sertifikatı verilib.

# AGBank-dan "Tax Free" xidməti

Ölkənin aparıcı banklarından olan AGBank müştərilərinə "Tax Free" sistemindən yararlanmaq imkanı verir. Artıq AGBank müştəriləri bankın təqdim etdiyi kartlarla ölkə xaricində alış- veriş edən zaman ödədiyi məbləğin bir hissəsi (əlavə dəyər vergisi– ƏDV) geri qaytarılaraq 48 saat ərzində onların kart hesablarına yüklənəcək. Geri qaytarılan məbləğ ölkələrə görə dəyişir. Belə ki, Böyük Britaniya - qaytarılan ƏDV 20%, Almaniya - qaytarılan ƏDV 19%, İspaniya - 21%, Fransa - 20%, İtaliya - qaytarılan ƏDV 22%.

Bundan əlavə, alış -veriş zamanı bank tərəfindən kart istifadəçilərinə bonuslar da veriləcək. Xidmətdən rahat şəkildə yararlanmaq üçün müştərilər banka yaxınlaşmadan xüsusi proqramı öz telefonlarına yükləyə bilərlər.

Qeyd edək ki, "Tax-free" sistemi yaşı 14-dən çox olan şəxslərin ölkə xaricində alış-verişi zamanı ödədiyi məbləğin bir hissəsinin (əlavə dəyər vergisinin – ƏDV) onlara geri qaytarılmasını nəzərdə tutur.




Qeyd edək ki, 1992-ci ildə fəaliyyətə başlayan və Azərbaycanın 10 aparıcı banklarının siyahısına daxil olan AGBank bu il öz 25-ci yubiley ilinə qədəm qoymuşdur. Bank yaxın günlərdə müştərilərin rahatlığına yönəldilmiş yeni məhsullar təqdim etməklə yanaşı, bir sıra innovativ layihələr də həyata keçirəcək.

# Əmirxan Babaşov - 70
# PROFESSİONAL İQTİSADÇI



Əmirxan Mehralı oğlu Babaşov 1947-ci il 5 fevralda Gürcüstan SSR Bolnisi rayonunun Faxralı kəndində anadan olmuşdur. 1965-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin iqtisad fakültəsinə daxil olmuşdur. O, 1969-cu ildə həmin institutun Əmtəəşünaslıq, ticarətin təşkili və iqtisadiyyatı fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Azərbaycan SSR Dövlət Plan Komitəsi yanında Elmi Tədqiqat İqtisadiyyat İnstitutunun direktoru, görkəmli alim, iqtisad elmlər doktoru, professor M.M.Allahverdiyev Ə.Babaşovun elmi-tədqiqat işinə olan həvəsini nəzərə alıb, onun təyinatını dəyişdirərək instituta gətirmiş və kiçik elmi işçi vəzifəsinə işə qəbul etmişdir. O, 1971-1972- ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur. Ə.Babaşov 1972-ci ildə ETİİ-də əyani aspiranturaya daxil olmuş və Moskva şəhərində SSRİ Dövlət Plan Komitəsi yanında İqtisadiyyat Elmi Tədqiqat İnstitutuna ezam olunmuşdur. Həmin institutun Əhalinin həyat səviyyəsi və sosial inkişaf şöbəsinin müdiri, professor N.S.Laqutinin rəhbərliyi ilə "Azərbaycan SSR əhalisinin sosial qruplarının həyat səviyyəsinin yaxınlaşdırılması problemləri (iqtisadi təhlil və planlaşdırma məsələləri)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. 1991-ci ildən SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə ona Baş elmi işçi (dosent) attestatı verilmişdir.

Ə.Babaşov ETİİ-də yerinə yetirilən "1976-1990-cı illərdə Azərbaycan SSR-də məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinin əsas istiqamətləri" (Bakı 1978), "2000-ci ilə qədər Azərbaycan SSR-in məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi sxemi" (Bakı 1982), "1985-2005-ci illərdə Azərbaycan SSR-də elmi-texniki tərəqqinin kompleks proqramı" (Moskva 1983) və "1990-2005-ci illərdə Azərbaycan SSR-in məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi baş sxemi" (3 cilddə) kimi fundamental sənədlərin müəllifləri sırasında olmuşdur.

Ə.Babaşov SSRİ Dövlət Plan Komitəsi yanında İqtisadiyyat Elmi Tədqiqat İnstitutu ilə birgə yerinə yetirilən "Müttəfiq respublikalarda minimum istehlak büdcəsi və minimum əməkhaqqı problemləri" üzrə dörd blokdan ibarət elmi-tədqiqat işinin əsas müəlliflərindən biri olmuşdur. O, Bakı, Tbilisi, Moskva, Kiyev, Minsk, Strasburq, Frankfurt-na-Mayne və digər şəhərlərdə keçirilən simpozium və konfranslarda elmi məruzələrlə çıxış etmişdir.

O, altı kitabın, 70-dən çox elmi məqalənin və onlarla publisistik məqalələrin müəllifidir. Bu kitablar içərisində iki kitab xüsusi qeyd olunmalıdır.

Ə.Babaşov 1994-cü ilin may ayında Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət daimi komissiyasının eksperti qəbul edilmişdir. 1994-cü ilin noyabr ayından 2015-ci ilin dekabr ayına kimi Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsində böyük məsləhətçi və baş məsləhətçi vəzifələrində işləmişdir. Dövlət qulluğunun baş müşaviridir. 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə o, "Dövlət qulluğunda fərqlənməyə görə medal" ilə təltif edilmişdir.

Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsində 21 il fəal işləyən Əmirxan müəllim iqtisadi qanunvericilik bazasının yaradılmasında aktiv iştirak etmişdir.

Bununla yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. O, ayrı-ayrı illərdə Dövlət Neft və Sənaye Universitetində, Əmtəəşünaslıq-Kommersiya İnstitutunda, Təfəkkür, Asiya, Azərbaycan Dövlət İqtisad Universiteti, Memarlıq və İnşaat Universitetində iqtisadçı bakalvr və magistrantlara mühazirələr oxumuşdur. 20 ilə yaxın müddətdə Memarlıq və İnşaat Universitetində 0,5 ştat əvəzçiliklə işləyən Əmirxan müəllim hazırda "Sənayenin təşkili və idarə edilməsi" kafedrasında dosent vəzifəsində çalışır. Bakalavr və magistrlara ölkənin iqtisadi inkişafının gələcək perspektivləri barədə inandırıcı faktlar göstərir. O, magistr və namizədlik dissertasiya işlərinin elmi rəhbəri olmuş, bir çox namizədlik dissertasiyalarına opponentlik etmişdir.

Əmirxan müəllim bu gün də böyük əzmlə çalışır, iqtisadçı kadrların hazırlanmasında yaxından iştirak edir. Əmirxan müəllimi yubileyi münasibəti ilə təbrik edir, can sanğlığı, uzun ömür, pedaqoji fəaliyyətində müvəffəqiyyətlər arzulayırıq.

**"İqtisadiyyat"**

# PAŞA Bank 2016-cı ilin maliyyə nəticələrini açıqladı

Azərbaycanın ən iri korporativ bankı PAŞA Bank ASC 2016-cı ili 60 milyon 952 min manata yaxın xalis mənfəət ilə başa vurub.

2015-ci illə müqayisədə Bankın xalis mənfəəti 4,2 dəfə artıb. PAŞA Bank 2015-ci ildə 14 milyon 383 min manat xalis mənfəət əldə etmişdi.

Ötən il PAŞA Bankın cəmi gəlirləri 191 milyon 497 min manat təşkil edib ki, bu da 2015-ci illə müqayisədə 50 milyon 909 min manat və ya 36,2% çoxdur.

PAŞA Bank 2016-cı ildə 114 milyon 753 min manat faiz (2015-də 100 milyon 280 min manat), 76 milyon 744 min manat qeyri-faiz (2015-də 40 milyon 308 min manat) gəliri əldə etmişdir. Göründüyü kimi, 2016-da bir əvvəlki illə müqayisədə Bankın gəlirlərinin artmasının əsas səbəbi qeyri-faiz gəlirlərinin artmasıdır. Bankın xarici valyutadan xalis gəlirinin 56 milyon 353 min manata çıxması qeyri-faiz gəlirlərinin artmasını təmin edib. Qeyri-faiz gəlirlərinin 21 milyon 547 min manatı xalis haqq və komissiya gəlirlərindən ibarət olub. PAŞA Bank ötən il 191 milyon 497 min manat cəmi gəlir əldə etmək üçün 114 milyon 35 min manat xərc çəkib. O cümlədən, bank faiz qazandıran aktivlər üzrə dəyərsizləşmə üçün ehtiyata 22 milyon 36 min manat ayırıb.

PAŞA Bank 77 milyon 463 min manat mənfəətindən 16 milyon 511 min manat mənfəət vergisi ödəyib və nəticədə bankın 60 milyon 952 min manat xalis mənfəəti qalmışdır.

**AKTİVLƏRİ İLK DƏFƏ 3 MİLYARD MANATI AŞIB**

Ötən il PAŞA Bankın aktivləri 846 min manatdan çox və ya 37% artaraq 31 dekabr 2016-cı il tarixində 3 milyard 138 milyon 773 min manata çatıb. 31 dekabr 2015-ci ildə Bankın aktivlərinin ümumi həcmi 2 milyard 292 min 739 min manat idi. Aktivlərdə böyük paya kredit təşkilatlarından alınacaq məbləğlər (1 milyard 110 milyon 794 min manat), müştərilərə verilmiş kreditlər (870 milyon 171 min manat) və pul vəsaitləri (781 milyon 639 min manat) olub.

**MÜŞTƏRİLƏRİ BANKA DAHA 1 MİLYARD MANAT YATIRIB**

31 dekabr 2016-cı il tarixinə Bankın öhdəlikləri 2 milyard 736 milyon 408 min manat, o cümlədən müştəriləri qarşısında öhdəlikləri 2 milyard 382 milyon 90 min manat təşkil edib. Bankın müştəriləri qarşısında öhdəlikləri 1 milyard 7 milyon 977 min manat və ya 73,3% artıb.

Ötən il PAŞA Bankın böyük məbləğdə xalis mənfəət əldə etməsinə bağlı olaraq cəmi kapitalı 400 milyon manatı aşaraq 402 milyon 364 min manata çatıb.

PAŞA Bankın Gürcüstan və Türkiyədə PASHA Bank Georgia və PASHA Yatırım Bankası A.Ş. törəmə bankları fəaliyyət göstərir.

# Beynəlxalq Bankın kapitalı artırılıb

"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin nizamnamə kapitalının 600 milyon manat məbləğində artırılması məqsədilə Bankın səhmlərinin emissiyası prosesi başa çatıb.

Nəticələr haqqında hesabat 23 yanvar 2017-ci il tarixində Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasında qeydiyyata alınıb. Bu barədə Bankdan bildirilib.

Qeyd edək ki, Bank nizamnamə kapitalını artıracağı barədə yanvarın 16-da açıqlama yaymışdı. Məlum olmuşdu ki, 13 yanvar 2017-ci il tarixində Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin hər birinin nominal dəyəri 0,27 manat olan 2222222223 ədəd adi səhmlərin əlavə buraxılışı AZ1004004581 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınıb. Bankın məlumatında deyilir ki, emissiya hər birinin nominal dəyəri 27 qəpik olan 2222222223 ədəd adi, sənədsiz adlı səhmlə həyata keçirilib. Beləliklə, Bankın səhmlərinin ümumi sayı 4 597360 178-ə çatıb. Nizamnamə kapitalının 1.241,287,248.06 manata qədər artırılması Azərbaycan Beynəlxalq Bankının sağlamlaşdırılması tədbirləri çərçivəsində yerinə yetirilir. Bankın kapitalının gücləndirilməsi istiqamətində atılan addımlardan biri kimi bu qərar aktivlərin artımı ilə kapitalın adekvatlığı arasında nisbəti təmin etmiş olacaq. Regionun maliyyə bazarında 25 ildir ki, mövcud olan Azərbaycan Beynəlxalq Bankında hazırda yeni idarəedici komandanın rəhbərliyi ilə maliyyə-təşkilati sağlamlaşdırma tədbirləri həyata keçirilir, Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2015-ci il tarixli müvafiq Fərmanında qarşıya qoyulmuş vəzifələr yerinə yetirilir.

# Mərkəzi Bank ARDNF-dən alacağı 7,5 mln. xərclənmə istiqamətlərini açıqlayıb

"Azərbaycan Dövlət Neft Fondu (ARDNF) tərəfindən bu il Azərbaycan Mərkəzi Bankına (AMB) nəzərdə tutulan 7,5 mlrd. manatadək (təxminən 4,1 milyard dollar) məbləğdə transfertin həyata keçirilməsi böyük makroiqtisadi sabitlik üçün Prezident İlham Əliyevin verdiyi dəstəkdir". Bunu açıqlamasında AMB-nin İdarə Heyəti sədrinin müavini Aftandil Babayev bildirib. "Biz uzun müddət Maliyyə Sabitliyi Şurası çərçivəsində əlaqədar iqtisadi qurumlarla geniş müzakirələr nəticəsində bütövlükdə bankın qlobal tarazlaşması amillərini təhlil etmişik. Bunlardan ən mühüm məqam dövlətin il üzrə xarici borcları, TANAP layihəsinin maliyyələşdirilməsi, Azərbaycan Beynəlxalq Bankının sağlamlaşdırılması və il üzrə bankın xarici borc öhdəliklərinin tənzimlənməsi, o cümlədən ehtiyac yaranarsa, Əmanətlərin Sığortalanması Fonduna vəsaitin ayrılması da hərrac vasitəsilə deyil, məhz transfert hesabına baş tutacaq. Bütün bu faktorlar ona yönəlir ki, fiksə olunmuş bu öhdəliklər valyuta bazarına təzyiqi neytrallaşdırsın. Bu isə məzənnənin bazar prinsipləri əsasında və böyük volatillik olmadan formalaşmasına şərait yaradacaq", - deyə sədr müavini qeyd edib.

# Kreditlərin 9%-ə yaxını ödənmir



Mərkəzi Bankın ilkin məlumatlarına görə, 2016-cı il dekabr ayının 1-nə ölkənin bank və bank olmayan kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 16 milyard 275,5 milyon manat təşkil etmiş, onun 12 milyard 824,5 milyon manatı uzunmüddətli kreditlər olmuşdur. Kredit portfeli 2015-ci il dekabr ayının 1-i ilə müqayisədə 13,2 faiz azalmışdır. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 8,9 faizini (1 milyard 450 milyon manatı) təşkil etmişdir.

Əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği 2016-cı il dekabr ayının 1-nə 7 milyard 605,8 milyon manat təşkil etmişdir.

Dekabr ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,75 manata (ilin əvvəlindən 1,60 manata), 1 avroya – 1,84 manata (1,77), 100 Rusiya rubluna – 2,82 manata (2,39) bərabər olmuşdur.

## Əhali 1,3 milyard manat kredit faizləri ödəyib

2016-cı ildə əvvəlki illə müqayisədə əhalinin gəlirləri nominal ifadədə 8,7 faiz artaraq 45 milyard 395,1 milyon manata çatmışdır. Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, gəlirlərin 76,3 faizi son istehlak xərclərinə, 8,4 faizi vergilərin, sığorta və üzvlük haqlarının, 2,9 faizi (və ya 1 milyard 316 milyon manatı) kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmiş, 12,4 faizi isə yığıma yönəldilmişdir.

# Unibank maliyyə hesabatlarını açıqladı

Ötən il Unibank-ın cəmi gəlirləri 164 milyon 443 min manat, o cümlədən faiz gəlirləri 122 milyon 14 min manat, qeyri-faiz gəlirləri 41 milyon 429 min manat təşkil edib. Bankın xərcləri isə 93 milyon 109 min manat olub və nəticədə 71 milyon 334 min manat əməliyyat mənfəəti alıb. Unibank-ın səhmdarları gələcəkdə kreditlərin qaytarılmaması ehtimalını nəzərə alaraq gəlirləri mənfəət şəklində götürmür, gəlirlərin bir hissəsi ehtiyatda saxlanılır. Bank ötən il ehtiyata 102 milyon 634 min manat ayırıb. Buna görə Unibank ili 31 milyon 300 min manat zərər ilə başa vurub.

2015-ci ildə Unibank-ın cəmi gəlirləri 201 milyon 743 min manat, cəmi xərcləri 116 milyon 260 min manat, xalis əməliyyat mənfəəti 85 milyon 482 min manat, ehtiyata ayırma 113 milyon 172 min manat, il üzrə zərəri isə 27 milyon 690 min manat təşkil etmişdi.

Beləliklə, Unibank son 2 ildə ehtiyatlara 215 milyon 806 min manat ayırıb. Ehtiyatlar bankın təhlükəsizlik yastığıdır. 2016-cı ilin sonuna Bankın kredit portfelinin həcmi 426 milyon 612 min manat təşkil edib.

31 dekabr 2016-cı il tarixinə Unibank 716 milyon 522 min manat cəmi aktivlərə, 650 milyon 5 min manat cəmi öhdəliklərə, 67 milyon 942 min manat cəmi kapitala malik olub.

# Yeni elektron xidmət istifadəyə verildi




"Elektron hökumət" portalında 36 xidməti ilə təmsil olunan Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Poçt ünvanları - interaktiv xəritə" adlı daha bir elektron xidməti portala inteqrasiya olunub.

Bu xidmətdən istifadə etməklə "Azərpoçt" MMC-nin 1550-dən çox poçt şöbəsinin ünvanlarını, poçt indekslərini, poçtların iş rejimini, poçt məntəqəsinə gedən ən yaxın yolu müəyyən etmək mümkündür. "Google Map" üzərindən təqdim edilən bu xidmət bir çox funksionallıqları özündə birləşdirir. Xəritə üzərində küçə adına, poçt indeksinə və telefon nömrəsinə görə axtarış etmək olar. Xidmətin funksional imkanları genişdir. "Marşrutu göstər" düyməsini seçdikdə lokasiya üzrə poçt məntəqəsinə olan nəqliyyat vasitəsinin hərəkət marşrutu göstərilir. "Poçt Ünvanları" mobil tətbiqini "App Store" və "Play Store"-da "Poçt Ünvanları" yazıb axtarış etməklə mobil qurğunuza yükləyə bilərsiniz.

# В МИРЕ

## Народный банк Китая произвел рекордное вливание ликвидности на сумму $173 млрд.



Народный банк Китая произвел на этой неделе рекордное вливание ликвидности на национальном рынке, увеличив денежную массу на 1,19 трлн юаней ($173 млрд). В Центробанке КНР, подобные меры призваны минимизировать риск возникновения нехватки денег в обращении из-за резкого роста спроса на них в преддверии Нового года по лунному календарю (в этом году приходится на 28 января) и последующих за ним длительных праздников. Большинство компаний Китая в ближайшие дни выплатит своим работникам зарплаты и премиальные, к тому же в стране близится очередной кратковременный транспортный и потребительский бум, когда большинство жителей будут путешествовать по стране, приобретать многочисленные подарки. Благодаря вливаниям на период праздников НБК удается не допустить возникновения крайне нежелательного резкого скачка процентных ставок на китайском межбанковском рынке кредитования.

## Что будет с процентными ставками в США в 2017 и 2018 годах




Влияние экономической политики США на мировую экономику и отдельные страны в наибольшей степени проявлялось в последние годы через процентную политику Федеральной резервной системы. Влияние экономической политика США на мировую экономику и отдельные страны в наибольшей степени проявлялось в последние годы через процентную политику Федеральной резервной системы. Мягкая денежно-кредитная политика после кризиса 2007-2008 гг. привела к снижению доходностей казначейских облигаций США и ослаблению доллара, что благоприятствовало росту цен на нефть и развивающихся рынков. Ожидаемое же повышение процентных ставок ФРС делает активы развивающихся экономик менее привлекательными, а более сильный доллар.

## Стоимость нефти марки Brent опустилась ниже $55 за баррель



Мировые цены на нефть снижаются на данных о росте числа буровых установок в США. Стоимость мартовских фьючерсов на нефть марки Brent на 19.00 мск опустилась на 0,98% до $54,95 за баррель. Цена фьючерса на нефть WTI с поставкой в марте к этому времени выросла на 2,04% до $52,42 за баррель. Нефтяные компании в США на прошлой неделе увеличили число буровых вышек в эксплуатации на 29 единиц, уточнила Baker Hughes. Общее число буровых установок составило 551 - максимум с ноября 2015 г.

## Азербайджан увеличил экспорт газа в Турцию

Азербайджан в январе-ноябре 2016 года поставил в Турцию 5,89 миллиардов кубометров газа против 5,57 миллиарда кубометров, поставленных за 11 месяцев 2015 года. В 2015 году Азербайджан поставил в Турцию 6,17 миллиарда кубометров природного газа против 6,07 миллиарда кубометров, поставленных в 2014 году. В январе-ноябре Турция импортировала 40,78 миллиарда кубометров газа, из которых 34,45 миллиарда кубометров были импортированы по трубопроводам, а 6,33 миллиарда кубометров пришлись на импорт СПГ. Доля Азербайджана в общем импорте Турцией газа в январе-ноябре 2016 года составила 14,43 процента. Турция импортирует газ из Азербайджана по Южнокавказскому газопроводу (Баку-Тбилиси-Эрзурум). Турция имеет контракт на ежегодную закупку 6,6 миллиарда кубометров газа с азербайджанского морского газоконденсатного месторождения "Шах Дениз".

## В Азербайджане выросло производство в металлургической промышленности

В 2016 году металлургической промышленностью и предприятиями по выпуску готовых изделий из металла в Азербайджане было произведено продукции на 420,4 миллиона манатов, Объем производства в металлургической промышленности в 2016 году вырос на 0,3 процента, а выпуск готовой продукции увеличился на 24,9 процента. По итогам января-декабря 2016 года производство арматуры в Азербайджане составило 223 тысячи тонн, что на 5,3 процента больше аналогичного показателя 2015 года. Стальных труб за прошлый год было произведено в объеме 53,5 тысячи тонн, что на 79,6 процента больше показателя 2015 года. Объем производства стального литья в стране за 2016 год составил 345,3 тысячи тонн, что на 14,3 процента больше показателя 2015 года. В 2016 году Азербайджан экспортировал 52317,1 тонны труб из черных металлов (на сумму свыше 40533,0 тысяч долларов), что в пять раз (в денежном выражении - на 4,7 раза) больше, чем в 2015 году.

## Финрегулятор Азербайджана определился с медстраховщиком

Страховая компания A-Group объявлена победителем тендера по оказанию услуг по медицинскому страхованию сотрудникам Палаты надзора над финансовыми рынками Азербайджана, говорится в сообщении, опубликованном в среду в официальной печати. A-Group основана в 1995 году. СК оказывает услуги по медицинскому страхованию, страхованию от несчастных случаев, имущества, транспортных средств, туристическому страхованию, страхованию ответственности и других видов.

## Азербайджан добыл свыше 41 млн тонн нефти

В 2016 году в Азербайджане было добыто 41,03 миллиона тонн нефти и газового конденсата, что на 1,5 процента меньше, чем за 2015 год, говорится в отчете Государственного комитета по статистике. В 2015 году в Азербайджане было добыто 41,69 миллиона тонн нефти и газового конденсата против 41,9 миллиона тонн, добытых в 2014 году. Основной объем добычи нефти в Азербайджане приходится на блок нефтегазовых месторождений "Азери-Чираг-Гюнешли" (АЧГ). Добыча товарного газа в Азербайджане, по данным Госкомстата, в прошлом году составила 18,71 миллиарда кубометров, что на 3,9 процента меньше показателя 2015 года. Добыча товарного газа в Азербайджане в 2015 году составила 19,72 миллиарда кубометров против 18,7 миллиарда кубометров, добытых в 2014 году.

# Легко быть стартапом в Азербайджане!



Центр Инноваций и Предпринимательства Barama начал сотрудничать с Центром Анализа Экономических Реформ и Коммуникации. 18 января состоялась встреча между руководством Центра и стартапами из Barama. На встрече были обсуждены проекты в области информационных технологий, реализованных при помощи Центра Инноваций и Предпринимательства Barama и о портале azexport.az, функционирующем при центре. Руководитель портала azexport.az, который был создан для поддержки развитию бизнеса в Азербайджане, Заур Гардашов рассказал стартапам о целях, технических возможностях и о способах включения новой информации в портал, а также ответил на интересующие их вопросы. Руководитель Центра Инноваций и Предпринимательства Barama Имран Багиров напомнил о целом ряде успешных проектов, реализованных в сфере стартапов со стороны государственных и частных организаций, и подчеркнул, что широкие экспортные возможности портала azexport.az создают новые условия для включения в него товаров и услуг. Помимо этого, сотрудничество с порталом позволит улучшению инвестиционного климата в сфере ИКТ в нашей стране, появлению новых Интернет и ИТ проектов, и поможет в превращении инновационных идей в успешные бизнес проекты. Данный процесс, в свою очередь, откроет дополнительные возможности для признания заслуг Азербайджанской молодёжи, занятых в сфере информационных технологий. В своем выступлении руководитель отдела Корпоративных Коммуникаций Нигяр Шихлинская также подчеркнула особую важность развития ненефтяного сектора в нашей стране и наличие всех необходимых условий для этого. Отметив постоянную поддержку со стороны Azercell процессу развития предпринимательства и профессионального роста молодёжи, Н.Шихлинская призвала молодых людей активно использовать представленные возможности. Сайт Azexport.az был создан согласно Распоряжению «О создании единой базы данных товаров, производимых в Азербайджанской Республике» Президента Азербайджанской Республики господина Ильхама Алиева, подписанном 21 сентября 2016 года.

## «Эксельсиор Отель & Спа Баку» и Западный Университет подписали договор



18 января состоялось подписание договора о сотрудничестве между отелем «Эксельсиор Отель & Спа Баку» и Западным Университетом. В рамках договора о сотрудничестве студенты III курса факультета "бизнес-администрирование" Западного Университета смогут пройти курс по производству, а студенты IV курса преддипломную практику в департаментах отеля «Эксельсиор Отель & Спа Баку» В церемонии подписания приняли участие генеральный менеджер отеля Турхан Пойраз, HR менеджер отеля Кямран Рзаев, начальник отдела корпоративных коммуникаций ОАО «АтаХолдинг» Диляра Заманова, заведующий кафедрой «Экономика, маркетинг и менеджмент» Западного Университета д.ф.э. проф.Парвиз Гурбанов, заведующая кафедрой «Математика и компьютерные технологии» д.ф.п. доц. Рена Гаджиева и студенты Западного Университета.

## Bakcell запускает лотерею

Первый Оператор Мобильной Связи и Ведущий Провайдер Мобильного Интернета в Азербайджане – компания Bakcell, с радостью объявляет о запуске очередной лотереи для участников программы Ulduzum. Абоненты Bakcell получат возможность выиграть 10 подарочных карт на сумму 100 AZN, 20 подарочных карт на сумму 50 AZN, 40 подарочных карт на сумму 30 AZN, 90 подарочных карт на сумму 20 AZN. Еженедельный призовой фонд на общую сумму 5000 AZN состоит из 160 подарочных карт и главного приза – путевки в Манчестер. Чтобы принять участие в лотерее, достаточно отправить SMS с текстом «KOD» на номер 5555. Вы получите код Ulduzum от Bakcell и сможете воспользоваться услугами одного из следующих партнеров программы: L'occitane, Katv1, Domino's Pizza, Kids World, Tusi-Bohm Planetarium, Poppy gallery, Karen Millen, Megafun, Flo, Puma. Минимальная сумма покупки, используя данные услуги, должна составлять 10 AZN. При каждой покупке на сумму 10 AZN в магазине-партнере программы, абоненты Bakcell автоматически становятся участниками лотереи Ulduzum.

# Fondun Müşahidə Şurasının növbəti iclası keçirilib



Yanvarın 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Fondun Müşahidə Şurasının sədri Umud Mirzəyev iclası giriş sözü ilə açaraq gündəlikdəki məsələlər barədə məlumat verib:

1. Fondun 2016-cı ilin yekunlarına həsr olunmuş hesabatının müzakirəsi və təsdiqi;
2. Fondun 2017-ci il üçün Tədbirlər Planının təsdiqi;
3. Fondun Novruz bayramı münasibətilə keçirəcəyi fərdi jurnalist yazıları müsabiqəsinin elanının müzakirəsi və təsdiqi;
4. Fondun jurnalist təşkilatları üçün elan etdiyi "Azərbaycanın media məkanında ədəbi dilin qorunması", "Azərbaycan teleradio məkanında ədəbi dilin qorunması" və "Jurnalist peşəkarlığının artırılması" mövzularında müsabiqənin elanının müzakirəsi və təsdiqi;
5. Fondun 2017-ci il üçün ekspertlərinin tərkibinin təsdiqi;
6. Cari məsələlər.

Müşahidə Şurasının sədri Umud Mirzəyev gündəlikdəki birinci məsələ barədə danışmaq üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib. İclasda hesabat məruzəsi ilə çıxış edən icraçı direktor 2016-cı ildə respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında baş vermiş hadisələrin diqqət mərkəzində saxlanıldığını bildirib. V.Səfərli mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətinin yaxşılaşdırılması, eləcə də digər istiqamətlərdə həyata keçirilən çoxsaylı layihələr barədə məlumat verib.

Sonra hesabat ətrafında müzakirələr aparılıb. Müşahidə Şurasının sədr müavini Vüqar Rəhimzadə, üzvlərdən - Vüqar Əliyev, Əflatun Amaşov, Bəxtiyar Sadıqov, Rəşad Məcid, Müşfiq Ələsgərli və İntiqam Hümbətov çıxış edərək, Fondun 2016-cı ildəki fəaliyyətini qənaətbəxş dəyərləndiriblər və hesabat yekdilliklə qəbul edilib.

İclasda ikinci məsələ kimi Fondun 2017-ci il üçün Tədbirlər Planı müzakirə olunub. 2017-ci ilin respublikamızda "İslam Həmrəyliyi ili" elan olunduğunu, Bakıda İslam Həmrəyliyi Oyunlarının keçiriləcəyini deyən V.Səfərli hazırlanmış Tədbirlər Planında bütün bunların nəzərə alındığını vurğulayıb. Tədbirlər Planı Müşahidə Şurasının üzvləri tərəfindən müsbət dəyərləndirilərək təsdiq edilib.

Gündəliyə müvafiq olaraq iclasda, həmçinin Fondun Novruz bayramı münasibətilə keçirəcəyi fərdi jurnalist yazıları müsabiqəsinin elanı müzakirə olunub. Müzakirələrin sonunda növbəti müsabiqənin KİV-ə Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 15 istiqamət üzrə, yanvarın 25-dən martın 7-dək keçirilməsi qərara alınıb.

Müşahidə Şurasının iclasında növbəti məsələ kimi Fondun jurnalist təşkilatları üçün elan etdiyi "Azərbaycanın media məkanında ədəbi dilin qorunması", "Azərbaycan teleradio məkanında ədəbi dilin qorunması" və "Jurnalist peşəkarlığının artırılması" mövzularında müsabiqənin elanı müzakirə edilərək təsdiqlənib. Müsabiqənin yanvarın 25-dən fevralın 24-dək keçirilməsinə qərar verilib.

İclasda, həmçinin Fondun 2017-ci il üçün ekspertlərinin siyahısı müzakirə olunaraq təsdiq edilib.

Cari məsələlərin müzakirəsi zamanı icraçı direktor V.Səfərli Fondun qarşıdakı fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib.

# «STARTUP»ÇI AĞIL VƏ ALIN TƏRİ İLƏ ÇALIŞAN TƏŞƏBBÜSKAR İXTİRAÇIDIR

***«Startup» nədir?***

2008-ci il dünya maliyyə böhranından sonra Amerikada yeni nəsil iş adamları və onların həyatımıza gətirdiyi «Startup» fırtınası yarandı. Bu gün bu fırtına dünyanın hər yerində həyəcanla izlənməkdədir.

Hərfi tərcümədə «Startup» "nəyisə hərəkətə keçirmək üçün görülən iş ya da müddət"dir. Bəzi mənbələrdə "yeni və ya azad təşəbbüskarlıq" kimi tərcümə edilsə də, bu barədə mübahisələr gündən-günə artmaqdadır. Lakin mənası nə olursa olsun, «Startup» yeni biznes növü və ya sahibkarlıq tipi deyil, daha çox ixtira, kəşf və səmərələşdirici təklif statusundadır.

Əslində bu gün dünyanı hörümçək toru kimi sarıyan «Startup» anlayışı ilk dəfə 1996-cı ildə Türkiyədə Təşəbbüskar İş adamları Fondu (Girişimci İşadamları Vakfı) tərəfindən meydana çıxdı. Cəmi 40 yenilikçi üzvü ilə fəaliyyət göstərən Fond Türkiyənin Əmək və Sosial Müdafiə Nazirliyi, eləcə də Elm, Sənaye və Texnologiyalar Nazirliyi ilə əlaqəli şəkildə çalışırdı. Məqsəd Türkiyənin iqtisadi cəhətdən inkişaf etmiş ölkələr sırasına keçməsi üçün yenilikçi texnologiyalara sahiblənməsi idi. Bu səbəbdən təşəbbüskarlar (türkcə - girişimci) Fond tərəfindən əvvəlcə maarifləndirilir, sonra iş həyatına atılırdılar. Bir faktı qeyd edim: bir zamanlar orqanik gübrələrin sənayeləşdirilməsi layihəsi bir xəyal idi. Təəssüf ki, bu məsələ yalnız ötən il öz həllini tapdı və Türkiyənin Kənd Təsərrüfatı Nazirliyi fermerləri kimyəvi tərkibli deyil, orqanik gübrələrdən istifadəyə dəvət etdi. Bir sözlə, təşəbbüskarlıq ideyaları bir zamanlar Türkiyədə elə bir uğur qazandı ki ABŞ-dakı müəyyən dairələr uzun illər sonra bəzi əlavələr gətirməklə bu ideyanı beynəlxalq ticarət səviyyəsinə çıxartdı və «Startup» yarandı.

***Hər təşəbbüs yenilikçi təşəbbüs sayıla bilməz...***

«Startup»larla bağlı ən aktual sual budur: "Hər təşəbbüs yenilikçi təşəbbüs sayıla bilərmi?" Yeni bir kafe, restoran, fermer təsərrüfatı, ya da bir istehsal müəssisəsi yaratmaq "Startup" ola bilərmi? Təbii ki, dəyərləndirilə bilməz. Ətlik inəklər arasında Fransanın Limuzin və Şarole cinsləri ilk üçlükdə yer alır. Bu sortları Azərbaycana gətirib sayını artırmaq təşəbbüskarlıq sayılmaz. Bütün dünyada olduğu kimi, Azərbaycanda da heyvandarlıq məhsullarına olan tələbat günü-gündən artır. Lakin BMT-nin statistikası başqa faktları göstərir. İribuynuzlu heyvanlar planetdəki bütün içməli suyun 58 faizini mənimsəyir, otlaqların böyük bir hissəsi heyvanların yem mənbəyidir və əlavə olaraq hər ay yer üzündə milyonlarla ton qarğıdalı, soya, taxıl yem kimi istehlak olunur. 1 litr südün istehsalı üçün 9 litrə yaxın su sərf edildiyini bəlkə də hər kəs bilmir. Heyvanlar eroziya hallarının 55%-nə, pestisidlərdən istifadə hallarının 37%-nə səbəb olur, qlobal istiləşməyə gətirib çıxaran metan qazı buraxırlar. Əlbəttə, sənaye sahələri də metanın mənbəyidir, lakin iribuynuzlu heyvanların payına bu cür zərərli tullantıların 37%-ə qədəri düşür. O zaman sual yarana bilər: 1 litr südün və ya 1 kq mal ətinin real maya dəyəri nə qədərdir? Dəqiq cavabı kimsə verə bilməz. Bu gün azərbaycanlı təşəbbüskar fermerlərin qarşısında duran vəzifələrdən biri də daha kalorili yem mənbələrinin kəşfi və az yem qarşılığında yüksək ət və süd verən məhsuldar heyvan cinslərinin yaradılmasıdır. Bu layihə "Startup"dır.



***"Startup" "yenilikçi və sürətli inkişaf tempi qabiliyyəti"dir***

"Startup"çıların hər hansı bir biznesmendən fərqli DNT-si var. Bu, "baxmaq" və "görmək" kəlməsi arasındakı fərqə bənzəyir. Bir rəsm tablosuna baxan hər kəs oradakı xırda detalları görməyə bilər. "Startup"ın modern qurucuları olan amerikalıların fikrinə görə, bir biznesin "Startup" sayıla bilməsi üçün sahib olacaq ən başlıca özəlliyi "yenilikçi və sürətli inkişaf tempi qabiliyyəti"nin olmasıdır. Elm və texnologiya elə bir templə inkişaf edir ki, 1 il əvvəl əlinizdəki telefonun ya da stolüstü kompüterinizin proqramları sizin müasir tələblərinizə cavab verməyə bilər. Yeni bir bərbər salonu açmaq "Startup" ola bilməz. Yaxud, bir şirkətin "Startup" olması üçün yeni yaranmış olması, ya da gənc olması vacib deyildir. 19 milyard dollarlıq sərvətə sahib olan "Whatsapp"ın qurucularından Jan Koum şirkətlərinin 5-ci ildönümündə verdiyi bir reportajda "Whatsapp"ı indiyədək "Startup" olaraq gördüklərini söyləyib. J.Koum: "Məncə "Startup"lar insan yaşı kimi zamanla deyil, ruhla əlaqəlidir. Mən özümü 38 yaşındakı kimi hiss etmirəm. Şirkətimiz də 5 yaşındadır, ancaq çox sürətlə hərəkət edir, sürətlə qərar qəbul edir və işimizə davam edirik. Deməli, biz hələ də "Startup"ıq", - deyib.

"Startup"lar fərqli bir şirkət tipi sayıla bilərmi? ABŞ-da "Startup"lar üçün vergi məsrəflərinin azaldılmasını və qanuni prosedurların icrasını asanlaşdıran "C-Corp" adlanan vergi ödəyicisi statusu var. Bu, vergi ödəyiciləri üçün Tibbi sığorta, Əlillik sığortası, Həyat sığortası və tibbi xərclər federal büdcədən ayrılır.

"Startup" hər zaman yenilənə bilən ixtiradır desək, yanılmarıq. Buna görə də müvafiq dövlət orqanlarından müəlliflik hüququ patentinin alınması vacibdir. "Startup"da əsas məqsəd yenilik yaratmaqdır.

***Türkiyədə "Startup" fırtınası***

Artıq bir neçə ildir ki, qardaş Türkiyədə də "Startup" fırtınası var. Yəni, internet təşəbbüskarlığı, yeni təşviqlər, müsabiqələr və Türkiyəyə daxil olan nəhəng yatırımlar və s. Ölkədə hər il ən uğurlu "Startup" müsabiqələri keçirilir. Türkiyədə təklif olunan "Startup" layihələri daha çox xidmət sektoruna istiqamətlənib.

Misal üçün, 2014-cü ildə qalib gəlmiş "Startup"lar arasında 100% təbii sabunlar haqqında: www.thesabun.com, satın alacağınız avtomobil barəsində bilmək istədiyiniz hər şey: www.ototespit.com, getmək istədiyiniz restoranla bağlı məlumat almanın ən asan yolu: www.mekan.com da var. 2015-ci ilin qalibləri isə ötən ilki müsabiqədə müəyyənləşdi. Hətta ABŞ-dan da 500 təşəbbüskar türkiyəli məsləkdaşlarını dəstəkləmək üçün gəldi.

***Beləliklə təşəbbüskar:***

- yeni məhsul və ya xidmət növləri yaradır və inkişaf etdirir;
- yeni ixracat bazarları kəşf edir;
- yeni xammal yataqları və ya mədənlərini kəşf edir.

Təşəbbüskarlığın gətirdiyi faydalar:

- yeni məhsul və ya xidmət növləri yaratmaq;
- yenilikçi bir iş fikrini həyata keçirmək;
- başqalarının görə bilmədiyi fürsətlərdən yararlanmaq;
- yeni istehsal metodları düşünmək və təkmilləşdirmək;
- yeni bazarlara girə bilmək və ya yeni potensial bazarlar yaratmaq;
- xammalların və digər maddələrin yataqlarını və ya mədənlərini kəşf etmək;
- hazır məhsulların təyinatını dəyişdirmək və ya keyfiyyətini yüksəltmək,
- daxil olduğu sektora və ətrafına müsbət təsir etmək;
- yeni metodlarla əlaqədar alternativ yollar yaratmaq və ya xərcləri azaltmaq;
- yeni texnologiyalar kəşf etmək;
- iş dünyasında baş verən əsaslı dəyişikliklərə liderlik etmək.

Geridə qalmış və inkişaf etməkdə olan ölkələrdə ən əhəmiyyətli məsələlərdən biri də işsizlikdir. İşsizlikdən qurtulmanın ən sadə yolu, insanların öz biznesini qurmalarıdır. Təşəbbüskar sayı nə qədər artarsa, ölkədə məşğulluq da bir o qədər artar.

***"Startup"çı gənclər Azərbaycanın inkişafı üçün nə edə bilərlər?***

Hələ sovet illərindən qalma rusca bir deyim var: "Təşəbbüs cəzalandırılır". Bu ifadəni məktəb illərindən tez-tez eşidirdik. Sosializmdə istehsal, nəqliyyat və rabitə vasitələri üzərində nəzarət dövlətə məxsusdur. Bu səbəbdən də azad ticarətin və sərbəst bazar iqtisadiyyatının olmadığı mühafizəkar SSRİ-də biznes qabiliyyəti və təşəbbüskarlıq yox dərəcəsində idi. Son zamanlar Azərbaycan mətbuatında da "Startup", "təşəbbüskar olmaq", "təşəbbüskarlıq" kimi ifadələri tez-tez eşitmək olar.

"Startup"çı gənclər Azərbaycanın inkişafı üçün nə edə bilərlər? İlk növbədə unutmayaq ki, iqtisadiyyatın bütün sahələrində "Startup" layihələrini həyata keçirmək mümkündür. Önəmli olan məsələ ölkənin strateji maraqlarına və günün tələblərinə və reallıqlara uyğun, eləcə də dünyada aktual olan mövzularda "Startup" layihələrinin düşünülməsidir. Məsələn, Orta Amerika qurşağına xas olan şirin kartof növünü Azərbaycanda yetişdirmək "Startup" sayılmaz. Ancaq Türkiyənin Adana bölgəsində yaşayan "Startup"çı gənclərin bu kartoflardan yeyinti məhsulları üçün ətraf mühitə ziyan vurmayacaq, təbiət dostu plastik qablar istehsalı layihəsini "İnovativ təşəbbüskarlıq layihəsi" adlandlrmaq olar.

Qlobal iqlim dəyişikliyi, təbii fəlakətlər, milli və etnik zəmində lokal müharibələr fonunda baş verən aclıq və yoxsullaşma, əhalinin plansız artımı, yeraltı və yerüstü sərvətlərin tükənməsi dünyada yeni risk faktorları yaradır. Yeni texnologiyalara, kompüter proqramlarına, az enerjiylə çalışan istehsal müəssisələrinə, alternativ enerji mənbələrinə, ətraf mühiti çirkləndirilməkdən qoruyan ixtiralara, yüksək məhsuldarlıqlı, bioorqanik toxum sortlarının və heyvan cinslərinin yaranmasına ehtiyac var. "Startup"ların önündə duran məhz bu məsələlər olmalıdır.

Bir də unutmaq olmaz ki, təşəbbüskarlıq hər zaman risklidir. Əvvəla "Startup" müəyyən xərc tələb edən bir işdir. Dinamiti kəşf etmiş və tüstüsüz barıtın tərkibini tapmış ixtiraçı-kimyaçı Alfred Nobelin adı hamıya tanışdır. Amma bəlkə də az adam bilir ki A.Nobel bu kəşfləri üçün xeyli sərvətini və uzun illərini sərf etdi. Düşündüyünüz və həyata keçirmək istədiyiniz bir layihə istədiyiniz nəticəni verməyə bilər. Kommersiya bankları isə "Startup" layihələrinə kredit ayırmaya bilərlər. Dövlət isə ən yaxşı halda Amerika təcrübəsində olduğu kimi, vergilərdən azad edə bilər, ya da uğurlu layihələrə mükafatlar ayıra bilər. Bu sahədə ən uğurlu model isə fondlar tərəfindən təşviq edilən Türkiyə modelidir.

Bir sözlə, təşəbbüskarlıq əmək, zəhmət, səy, bacarıq, qabiliyyət, cəsarət, səbr, uzaqgörənlik, birlik, diqqət, hünər və təbii ki, sərvət tələb edir.



**Etibar RƏHİMOV,**
**AR-GE İNOVASYON LTD**
**TARIM, YATIRIM,**
**MARKALAŞMA UZMANI**
**etibar.info@gmail.com**
**(İSTANBUL)**

# Oqtay Qulam oğlu Məmmədli



1940-cı ildə anadan olmuş Gəncə Dövlət Universiteti İdarəetmə kafedrasının professoru, iqtisad üzrə fəlsəfə doktoru Oqtay Qulam oğlu Məmmədli 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin İqtisad fakültəsini bitirib. Əmək fəaliyyətinə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) statistika fənnindən dərs deməklə başlayıb, 1970-ci ildə dissertasiya müdafiə edərək alimlik dərəcəsi alıb. 1971-ci ilin yanvar ayından müsabiqə yolu ilə Gəncə Dövlət Pedaqoji İnstitutuna (indiki Gəncə Dövlət Universiteti) keçib və hazırda bu ali məktəbdə çalışır. 1977-1981-ci illərdə institut həmkarlar ittifaqı komitəsinin sədri, 1981-1990-cı illərdə siyasi iqtisad kafedrasının müdiri, 1988-1989 və 1989-1990-cı tədris illəri üçün instituta tələbə qəbulu komissiyasının məsul katibi olub, 30 dərslik və dərs vəsaitinin, 260-dan artıq elmi məqalənin müəllifidir.

Uzun illər iqtisad elminin tədrisi ilə məşğul olub. Bu dövrdə yüksək elmi biliyi, tədris intizamı, işgüzarlığı, intellektual səviyyəsi və digər insani keyfiyyətləri ilə tələbələrin, professor-müəllim heyətinin və şəhər ictimaiyyətinin gözündə yüksək zirvəyə qalxıb.

O.Q.Məmmədli Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 22 aprel 2009-cu il tarixli sərəncamına əsasən "Tərəqqi" medalı ilə təltif edilib. Bundan əvvəl isə ali təhsil sahəsində qazandığı nailiy-yətlərə görə 1982-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin 30 aprel 1982-ci il tarixli 65/4-1 №-li əmri ilə "Qabaqcıl ali məktəb işçisi" döş nişanına, dəfələrlə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşəkkürünə, zəhmətkeşlər arasında iqtisadi biliklərin təbliği sahəsindəki fəaliyyətinə görə isə "Bilik" cəmiyyətinin fəxri fərmanlarına layiq görülüb.

O.Q.Məmmədli tələbələrdə iqtisadi təfəkkürün formalaşdırılması sahəsində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, elmi kadrların hazırlanmasında bilik və bacarığını əsirgəməyib. Belə ki, indiyədək onlarla magistrlik dissertasiyasının rəhbəri, bir neçə doktorantın elmi rəhbəri, 10-dan çox dissertasiyanın rəsmi opponenti və elmi məsləhətçisi olub.

2011-2016-cı illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Dövlət Aqrar Universiteti nəzdində yaradılmış, fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının üzvü olub.

O.Q.Məmmədli 2005-2010-cu illərdə Azərbaycan MEA İqtisadiyyat İnstitutunda yaradılmış əlaqələndirmə Şurasının üzvü, hər birinin həcmi orta hesabla 77 fiziki çap vərəqi olan 7 cildlik "Böyük İqtisadi Ensiklopediya"nın həm redaksiya heyətinin üzvü, həm də onun 3-7-ci cildlərinin hazırlanmasına cəlb edilmiş müəlliflərdən biridir.

*Allah rəhmət eləsin!*

*Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzeti*

# Novruz Bayramı münasibətilə fərdi jurnalist yazıları müsabiqəsi elan edildi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" ilə müəyyən edilmiş dövlət dəstəyinin prioritet sahələrinə uyğun olaraq 15 istiqamət üzrə jurnalist yazılarının müsabiqəsini elan edir.

Hər istiqamət üzrə 6 qalib müəyyən edilir

I yer üçün bir nəfər (500 AZN)

II yer üçün iki nəfər (400 AZN)

III yer üçün üç nəfər (300 AZN)

Müsabiqədə yalnız I yerin qaliblərinə Fondun diplomu veriləcəkdir.

**Müsabiqəyə təqdim olunan yazılara aid tələblərlə www.kivdf.gov.az saytında tanış ola bilərsiniz.**

# İxracın artırılması üçün operativ tədbir

Dövlət başçısı tərəfindən ixracın genişləndirilməsi, kənd təsərrüfatı məhsullarının ixracının 2 dəfə artırılması vəzifə olaraq müəyyənləşdirilib. Nazir Şahin Mustafayev bildirib ki, tapşırığın icrası məqsədilə ixrac imkanlarının genişləndirilməsi üçün qısa müddətdə araşdırmaların aparılması və operativ tədbirlərin görülməsi barədə İqtisadiyyat Nazirliyinin struktur bölmələrinə göstərişlər verilib.

Qeyd olunub ki, artıq 54 məhsul (emal məhsulları, o cümlədən ət və süd məhsulları, meyvə-tərəvəz, bal, şərabçılıq məhsulları) üzrə təhlillər aparılıb və ixracının artırılması üçün tədbirlər görülür.




# MasterCard-dan istifadə edərək endirimlərə sahib olun!



"AtaBank" ASC-nin Master Card plastik kart sahibləri 31.03.2017-ci il tarixinədək Azərbaycanın aparıcı otellərində möhtəşəm güzəştlər əldə edə bilərlər. Kampaniyada iştirak edərək Fairmont Baku, JW Marriott Absheron Baku, Boulevard Hotel Baku və İntourist otellərində 25%-dək endirimlər qazanmaq mümkündür. Əlavə olaraq, Qəbələdə yerləşən Chenot Palace sağlamlıq mərkəzində müalicə prosedurlarına 20%, Tibbi Şöbənin xidmətlərinə isə 10% dəyərində endirimlər də mövcuddur. Otellərin rəsmi internet saytında və ya qeydiyyat masasında AtaBank Master Card plastik kartları ilə ödəniş edərək kart sahibləri təqdim edilən imtiyazlardan istifadə edə bilərlər.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Azərbaycan Respublikasının Belarus Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilova anası
**SOLMAZXANIM QƏNDİLOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Milli Məclisin deputatı Kəmaləddin Qafarova atası
**NƏSRƏDDİN QAFAROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə professor Qorxmaz İmanova bacısı
**SOLMAZXANIM QƏNDİLOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Gəncə Dövlət Universitetinin kafedra müdiri
**OQTAY MƏMMƏDLİNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

AMEA-nın müxbir üzvü Şahbaz Muradov Gəncə Dövlət Universitetinin kafedra müdiri
**OQTAY MƏMMƏDLİNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin direktoru Mais Bağırov professor Qorxmaz İmanova bacısı
**SOLMAZXANIM QƏNDİLOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akif Musayev, Nazim İmanov, Vahid Novruzov və Əli Nuriyev professor Qorxmaz İmanova bacısı
**SOLMAZXANIM QƏNDİLOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Məzahir, Fikrət və Elşad Səmədzadələr professor Qorxmaz İmanova bacısı
**SOLMAZXANIM QƏNDİLOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər

Arif Ələkbərov, Amil Məhərrəmov, Rəsul Balayev və Arif Hüseynov professor Qorxmaz İmanova bacısı
**SOLMAZXANIM QƏNDİLOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Professor Elşən Hacızadə professor Qorxmaz İmanova bacısı
**SOLMAZXANIM QƏNDİLOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«Asena Ko» MMC-nin rəhbəri Vahid Hümbətov professor Qorxmaz İmanova bacısı
**SOLMAZXANIM QƏNDİLOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə Dövlət Universiteti, Bakı Dövlət Universiteti və Azərbaycan Kooperasiya Universitetində fəaliyyət göstərən Birləşmiş Müdafiə Şurasının üzvləri: Eldar İbrahimov, Eldar Quliyev, İbad Abbasov, Amil Məhərrəmov, Arif Hüseynov, Afət Əhmədov, Bəyalı Ataşov, Gəncəli Gənciyev, Zahid Məmmədov, Pəri xanım Hüseynova, Cəmilə Namazova, Hürü Şamilova, Vahid Abbasov, Anar Əzizov, Məhərrəm Hüseynov, Nüşabə Hacıyeva, Asif Həsənov, Natiq Cavadov, Vahid Əmrahov, Əsli Quliyeva Müdafiə Şurasının üzvü
**OQTAY MƏMMƏDLİNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 3150